Azərbaycan Respublikası Elmlər Akademiyası
Şərqşünaslıq İnstitutu

# İRƏVAN ƏYALƏTİNİN
# İCMAL DƏFTƏRİ

**ARAŞDIRMA, TƏRCÜMƏ, QEYD
VƏ ƏLAVƏLƏRİN MÜƏLLİFLƏRİ**

**AKADEMİK VƏ TARİX ELMLƏRİ NAMİZƏDİ**

**ZİYA BÜNYADOV
HÜSAMƏDDİN MƏMMƏDOV (QARAMANLI)**

*Rəssamı:* Hüsaməddin MƏMMƏDOV
**(QARAMANLI)**

**Bakı – Elm – 1996**

Bu mühüm mənbənin nəşri ilə bağlı olaraq müraciət etmədiyimiz səlahiyyətli və imkanlı şəxs qalmadı. Bizi təəccübləndirən onların bu kitabı nəşr etdirmələri üçün imkanları olduqları halda vəsait ayırmamaqları deyil, iç üzlərini açaraq öz elinin-obasının tarixi keçmişinə nümayişkaranə şəkildə biganəlik göstərmələri olmuşdur. Heç gözləmədiyimiz halda bu əsərin çapının həyata keçirilməsini İrəvan əyalətinin ərazisi ilə bağlılığı olmayan bir şəxs, filologiya elmləri namizədi *Zəminə xanım Hacıyeva* öz üzərinə götürdü. Ümumi mənafeyi üstün tutaraq əsl vətəndaş kimi hərəkət etmiş *Zəminə xanıma* öz təşəkkürümüzü bildirir və elmi işlərində uğurlar diləyirik.

**İrəvan əyalətinin icmal dəftəri**. – Bakı: "Elm" 1996. – 184 səh.

ISBN 5-8066-0715-1

U 0502000000 - 487    Qrifli nəşr
655(07) – 96

**"Elm" nəşriyyatı, 1996**

## İÇİNDƏKİLƏR

İrəvan əyaləti dəftərləri (qısa icmal)
1728-ci i tarixli İrəvan əyalətinin icmal dəftəri
Özet

**MƏTN**

Sultan xassları
İrəvan müqatiələri
Qırxbulaq nahiyəsi
Karbi nahiyəsi
Maku nahiyəsi
Xınzirək nahiyəsi
Karni nahiyəsi
Vedi nahiyəsi
Dərəçiçək nahiyəsi
Abaran nahiyəsi
Göyçə nahiyəsi
Dərələyəz nahiyəsi
Məzrə nahiyəsi
Sürməli nahiyəsi
İğdır nahiyəsi
Aralıq nahiyəsi
Şərur nahiyəsi

**İRƏVAN MİRMİRANIN İRƏVAN LİVASINDA OLAN XASSLARI**

İrəvan şəhəri
Qırxbulaq nahiyəsi
Karbi və Kani nahiyələri
Karni və Karbi nahiyələri
Qırxbulaq nahiyəsi
Naxçıvan livası

**ZEAMƏT VƏ TİMARLAR**

Qırxbulaq nahiyəsi
Karbi nahiyəsi
Karni və Vedi nahiyələri
Abaran nahiyəsi

Dərəçiçək nahiyəsi

## SULTAN XASSLARI

Zarzəmin nahiyəsi
Şürəkəl livasının icmalı

## NAXÇIVAN LİVASI
## SULTAN XASSLARI

Naxçıvan nahiyəsi
Əlincə nahiyəsi
Sair Məvazi nahiyəsi
Dərəşahbuz nahiyəsi
Mülki-Arslan nahiyəsi
Məvaziyi-Xatun nahiyəsi
Qarabağ nahiyəsi
Qışlağat nahiyəsi
Dərəşam nahiyəsi
Azadciran nahiyəsi
Şorlut nahiyəsi
Dərənürgüt nahiyəsi
Sisyan nahiyəsi

## TİMARLAR

İrəvan əyaləti

## ƏLAVƏLƏR

1. Terminoloji açıqlama
2.1590-cı il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə yer adları (siyahı)
3.Xəritə

# İRƏVAN ƏYALƏTİNİN DƏFTƏRLƏRİ

## (qısa icmal)

Səfəvi hökmdarı Şah II Təhmasibin ölümündən sonra ölkədə yaranmış qeyri-sabit vəziyyəti və XVIII əsrin əvvəllərindən başlayaraq Səfəvi dövlətində güclənən mərkəzdənqaçma meyllərini, ərazisini şərqə və cənuba doğru genişləndirən Rusiya qarşısında öz geosiyasi maraqlarının qorunması üçün yeganə və çox mühüm bir vasitə kimi qəbul edən Osmanlı imperiyası əvvəlcə 1578-ci, sonra isə 1723-cü ildə qonşu Səfəvi dövləti ilə açıq qarşıdurmaya keçməli olur.

XVI əsrin sonunda və XVIII əsrin 20-ci illərində mövcud beynəlxalq vəziyyəti siyasi maraqları üçün istifadə edə bilməyən Səfəvi dövlətinə qarşı hərbi və eyni zamanda siyasi vasitələrdən uğurla istifadə edən Osmanlı imperiyası hər iki dövrün qarşıdurmasından qalib çıxmış və Səfəvi dövlətinin şimal-qərb bölgəsinin böyük bir hissəsini ələ keçirməyə müvəffəq olmuşdur. [1]

Ələ keçirdikləri bölgələri mərkəzləşmiş qaydada idarə etmək məqsədi ilə osmanlılar buraların ölkənin ictimai-siyasi və sosial-iqtisadi sisteminə inteqrasiyası ilə ciddi məşğul olmağa başlayırlar. Siyasi sabitliyi və asayişi təmin etmək, hücumlardan qorunmaq üçün osmanlılar ilk növbədə qalalarda silahlı qüvvələri yerləşdirir, onlara maaş kimi veriləcək vəsaitin mənbələrini müəyyən edirdilər. Bu tədbirdən sonra ələ keçirilən bölgələr əyalətlərə bölünür, onların ərazi-inzibati bölgüsü aparılır, yerli idarə aparatı formalaşdırılır, rəhbərləri (bəylərbəyi, sancaqbəyi, qazi, naib, kətxuda, dəftərdar) təyin edilirdi. Bundan sonrakı mərhələdə yerli idarə aparatının ayrı-ayrı idarələri işlərini paralel aparmağa başlayırlar. İlk növbədə dəftərxana işçiləri yerli əhalidən olan kətxudaların bələdçiliyi və onların bilavasitə iştirakı ilə əyalət əhalisinin sosial vəziyyətini təftiş edir, Səfəvi dövründəki vergi siyasətini müəyyənləşdirir, vergilərin toplanması zamanı edilən haqsızlıqları üzə çıxararaq, bəylərbəyi ilə qaziyə bildirir, əhalinin məşğuliyyəti, ailə vəziyyəti (evli, subay, dul), fiziki sağlamlığı (kor, lal, kar, topal), mənsub olduğu zümrə (şeyx, seyid və s.) haqqında ətraflı məlumat toplayır, gəlir obyektlərini müəyyən edir, onlardan alınacaq vergilərin həcmini dəqiqləşdirir, ticarət qaydalarını qoyurdular. Beləliklə də əyalətin idarə edilməsi üçün lazım olan qanunnamə və vergilərin nizamlı şəkildə toplanmasını müəyyən edən müfəssəl

---

[1] Ətraflı bax: Ş.F.Fərzəlibəyli. Azərbaycan və Osmanlı imperiyası. B., 1994: Ф.М.Алиев. Антииранские выступления и борьба против турецкой оккупации в Азербайджане в I половине XVIII века. Б., 1975: Т.Т. Мустафазаде. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в. Б., 1993; О.А. Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке. Б., 1981: Fahrettin M.Kirzioglu. Osmanlilarin Kafkas ellerini fethi (1451-1590), Ankara 1993: B.Kutukoglu. Osmanli-İran siyasi münasebetleri (1578-1612), İstanbul, 1993.

dəftər tərtib edilirdi. Növbəti sonuncu mərhələdə isə, əkilən torpaq sahələri və formaları ilə bərabər torpaq sahibləri müəyyən edilərək, toplanan məlumatlara əsasən müfəssəl dəftər də istifadə olunmaqla icmal dəftər hazırlanırdı[2].

Yuxarıda göstərdiyimiz tədbirlər XVI əsrin sonu – XVII əsrin əvvəllərində və XVIII əsrin 20-30-cu illərində Osmanlı idarəsində olmuş və osmanlı mənbələrində Rəvan (İrəvan) əyaləti/bəylərbəyi kimi qeyd edilən Çuxursə`d bəylərbəyliyində də həyata keçirilmişdir.

Bu tədbirlər nəticəsində osmanlılar İrəvan əyaləti üçün iki müfəssəl, dörd icmal, iki sicil dəftəri tərtib etmişdilər. Bunlardan bir sicil dəftəri, 1603-cü il tarixli "Dəftəri-sicili-livayi-Rəvan" Sofiyada, Kiril və Mefodi kitabxanasında[3], digərləri isə İstanbulda, Başbakanlıq Arşivində saxlanırlar[4]. Bu dəftərlərdən 1603-cü il tarixli sicil dəftəri, 1590-cı və 1728-ci il iki müfəssəl, 1595-ci (?) və 1728-ci il iki icmal dəftərləri əlimizdə olduğu üçün, İrəvan əyalətinin osmanlı dövründəki vəziyyəti haqqında bu dəftərlərin məlumatları əsasında fikir söyləməyə çalışacağıq.

Əvvəlcə əlimizdə olan dəftərlər haqqında qısa məlumat vermək istəyirik.

1. İrəvan əyalətinin müfəssəl dəftəri – İstanbul, Başbakanlıq Arşivi, № 633 – bu dəftərin tərtibi ilə bağlı iş Hicri 990-cı ilin məhərrəm ayında (noyabr 1590-cı il) başa çatdırılmışdır. 193 səhifəlik bu dəftərin bəzi səhifələri (s.15, 95, 98-99, 131, 134, 137-138, 157, 163, 181, 197-199, 213, 139, 253, 259, 325, 329, 339, 366-367, 387) boşdur. Dəftər tuğrasızdır. Dua (s.2-3) ilə başlayan bu dəftərin İrəvan əyalətinin sosial-iqtisadi həyatının bir çox yönləri ilə bağlı olan qanunnaməsi (s.4-12) də vardır. Rəqəmlər "ərqami-divaniyyə", qanunnamə nəsx, dəftərin özü isə siyaqət xətti ilə yazılmışdır[5].

2. İrəvan əyalətinin icmal dəftəri - tarixi yoxdur. Dəftərin tərtibindən sonra edilən ilk qeydin tarixinin 8 səfər (100)4-cü il (13 oktyabr 1595-ci il) olduğunu nəzərə alsaq bu dəftərin 1595-ci ildə və yaxud əvvəl tərtib edildiyini ehtimal etmək mümkündür. Həcmi 341 səhifədir (sonuncu 341-ci səhifə boşdur). Dəftərin birinci səhifəsində sultan III Muradın (1574-1595) tuğrası çəkilmişdir. Dəftər siyaqət, rəqəmlər isə "ərqami-divaniyyə" ilə yazılmışdır. İcmal dəftərlərin tərtibində əsas kimi götürülən prinsip pozulmuşdur: zeamətlər haqqında verilən məlumatlar bitmədən timarlara keçilmiş və sonra yenə də zeamətlərdən bəhs olunmağa başlanmışdır. Bu sistemsizlik bütün nahiyələr üzrə müşahidə olunur[6].

---

[2] Dəftərlərin tərtib olunması haqqında bax: O.D.Barkan. Tahrir defterlerinin istatistik verimleri hakkında bir araştırma. "İV TTK, Ankara, 10-14 Kasım 1948". Ankara 1952, s. 290-294; H.İnalcık. Hicri 835 tarihli Suret-i defter-i sancak-i Arvanid. Ankara, 1954, s.XV-XXI.

[3] "Dəftəri-sicili-livayi-Rəvan". Sofiya, НБКМ, ОАК 155/29.

[4] İstanbul, Başbakanlık Arşivi, 628, 633, 637, 681, 727, 895, 901.

[5] Yenə orada, № 633.

[6] Yenə orada, № 681.

3. “Dəftəri-sicili-livayi-Rəvan” – 22 səhifəlik bu dəftər İrəvan əyalətinin eyni adlı livasının Şərur, Əlincə, Urut, Bərgüşad və Naxçıvan nahiyələrində ayrı-ayrı şəxslərin timar sahibliyi üçün lazım olan bəratların verilməsi ilə əlaqədar tərtib olunmuşdur. Hicri 1011 (1603)-ci il boyunca tərtib edilmiş bu dəftərdəki bəzi sənədlərin kənarları qopmuşdur. Xətti siyaqət, qırma siyaqət və ərqami-divaniyyədir[7].

4. İrəvan əyalətinin müfəssəl dəftəri – üzərində sultan III Əhmədin (1703-1730) tuğrası çəkilmiş bu dəftər 19.06.1140 (3 fevral 1728)-ci ildə təsdiq olunub, qüvvəyə minmişdir. Dəftərdə qanunnamə yoxdur. 583 səhifəlik dəftərin bəzi səhifələri (21-23, 102-105, 216-223, 262-263, 285-287, 313-317, 336-337, 349-353, 389-393, 440-449, 530-532) boşdur. Xətti siyaqətdir[8].

5. İrəvan əyalətinin icmal dəftəri – eyni əyalətin müfəssəl dəftərinin qüvvəyə minməsindən iki ay sonra (24.09.1140/04.05.1728) təsdiq edilmiş bu dəftərin 1595-ci (?) il icmal dəftərindən fərqli olan yönü, onun sonuncu (s.168) səhifəsində sultan, mirmiran xasslarının gəliri, zeamət və timarların, “abad” və “heç kimin yaşamadığı” kəndlərin ümumi sayının verilməsidir. Dəftərin birinci səhifəsində sultan III Əhmədin tuğrası çəkilmişdir[9].

Bu dəftərlərin verdiyi məlumatlar osmanlı dövrü İrəvan əyalətinin sosial-iqtisadi, demoqrafik vəziyyəti, ərazi-inzibati quruluşu, toponimikası və digər məsələlərin işıqlandırılması üçün böyük əhəmiyyət kəsb edir.

XVI əsrin sonu və XVIII əsrin 20-30-cu illərindəki vəziyyəti qarşılaşdırdıqda, İrəvan əyalətində xeyli dəyişikliyin baş verdiyinin şahidi oluruq. Misal üçün, əgər 1590-cı il tarixli müfəssəl dəftərə görə, İrəvan əyaləti 10 nahiyəsi (İrəvan, Karbi, Vedi, Aralıq, Talin, Ərmus, Abnik, Abaran, Şərabxana) olan İrəvan livasından, 16 nahiyəsi (Ağcaqala, Məvaziyi-Xatun, Mülki-Arslanlı, Qarabağ, Dərəşam, Dərəşahbuz, Bazarçayı, Şərur, Zar, Zəbil, Əlincə, Sisyan, Azadciran, Ordubad[10], görünür bu müvəqqəti xarakter daşımışdır) Şorlut, Dərənürgüt) və bir qəzası (Naxçıvan) olan Naxçıvan livasından ibarət idisə, 1728-ci il tarixli İrəvan əyalətinin müfəssəl dəftərindən aydın olur ki, osmanlılar Naxçıvan bölgəsi üçün ayrıca bir müfəssəl dəftər tərtib etmiş[11], Zar, Zəbil və Şərur nahiyələrini Naxçıvan sancağının tərkibindən çıxararaq İrəvan əyalətinə birləşdirmişdilər. Bundan əlavə

[7] Sofiya, Kiril və Mefodi kitabxanası, OAK 155/29.
[8] İstanbul, Başbakanlık Arşivi, № 901.
[9] Yenə orada, № 895.
[10] Bu dövrdə Ordubad liva kimi Təbriz əyalətinə bağlanmışdırsa da, (İ.M.Kunt. Sancaktan eyalete. 1550-1650 arasında osmanlı umerası ve il idaresi. İstanbul, 1978. s.180.
[11] İstanbul. Başbakanlık Arşivi. № 905.

Maku[12], İğdır, Sürməli adlı nahiyələrin İrəvan əyalətinə birləşdirilməsi ilə bərabər, bu əyalətin ərazisində Göyçə, Məzrə`ə, Xınzirək, Qırxbulaq, Dərəçiçək və əhalisi 100% türk olan Sədərək adlı nahiyələr və Şürəkəl livası yaradılmış, XVI əsrin sonunda mövcud olmuş Talin, Ərmavi, Abnik, Şərabxana nahiyələri, Naxçıvan ərazisində isə Bazarçayı və Ağcaqala nahiyələri ləğv olunmuş, buraların kəndləri isə yeni yaradılmış nahiyələrə verilmişdir.

Beləliklə də, 1728-ci il tarixli İrəvan əyalətinin müfəssəl dəftərinə görə, eyni adlı əyalətin ərazi inzibati quruluşu aşağıdakı şəkli almışdır: İrəvan şəhəri, Qırxbulaq, Karbi, Maku, Xınzirək, Karni, Vedi, Dərəçiçək, Abaran, Göyçə, Məzrə`ə, Sürməli, İğdır, Aralıq, Şərur, Sədərək, Zarzəmin nahiyələri və Şürəkəl livası, Naxçıvan sancağı isə Naxçıvan şəhəri, Naxçıvan, Əlincə, Sair Məvazi, Dərəşahbuz, Mülki-Arslan, Məvaziyi-Xatun, Qarabağ, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərənürgüt, Dərələyəz və Sisyan nahiyələrindən ibarət olmuşdur. 1603-cü il tarixli “Dəftəri-sicili-livayi-Rəvan”da adı çəkilən Bərgüşad nahiyəsi Gəncə-Qarabağ əyalətinin tabeliyinə verilmiş[13], ancaq eyni livanın Urut nahiyəsinin tabeliyi haqqında heç bir məlumat yoxdur.

Lakin aşağıda oxuculara təqdim etdiyimiz “İrəvan əyalətinin icmal dəftəri”ndə İrəvan əyalətinin ərazi inzibati quruluşu ilə bağlı yeni faktlarla qarşılaşırıq. Müfəssəl dəftərdə mövcud olmuş Sədərək nahiyəsi icmal dəftərdə ərazi-inzibati vahid kimi yoxdur, ancaq ona tabe olan yaşayış yerləri qonşu nahiyələrə aid edilmiş və eyni zamanda Naxçıvan sancağının müfəssəl dəftərinə görə, Naxçıvan sancağına tabe olan Dərələyəz nahiyəsi icmal dəftərdə İrəvan əyalətinin tərkibində göstərilmişdir. Lakin bu, İrəvan əyaləti ilə Naxçıvan sancağının ərazi-inzibati quruluşunda dəyişikliyin edilməsi demək deyildir, çünki birincisi, ərazi-inzibati quruluşda tabeçilik məsələsi icmal dəftərə görə deyil, müfəssəl dəftərə görə müəyyən edilmiş, ikincisi, müfəssəl dəftərlərin də istifadə edilməsi ilə hazırlanan icmal dəftərinin tərkibinin əsas məqsədi əkilib-becərilən torpaq sahələrinin, mülkiyyət formalarının, onların sahiblərinin və illik gəlirlərinin müəyyənləşdirilməsi və bölüşdürülməsi olduğu üçün, ərazi-inzibati quruluşdakı tabeçilik məsələsi dəftərxanada çalışan və maraq dairələri maliyyə məsələləri ilə məhdudlaşan katiblər üçün böyük əhəmiyyət kəsb etməmişdi. Eyni zamanda bunu da əlavə etmək lazımdır ki, İrəvan əyalətinin müfəssəl və icmal dəftərlərinin eyni ildə (1728), iki ay sonra fasilə ilə və paralel tərtib olunduğunu nəzərə alsaq, yuxarıda qeyd etdiyimiz fərqlərin ortaya çıxmasını da təbii qəbul etmək lazım gələcəkdir.

---

[12] XVII əsrin ortalarında Maku sultanlıq kimi İrəvan əyalətinin tərkibində olmuşdur. (Bax: Эвлия Челеби. Книга путешествий. Перевод и комментарии. Вып. 3.М., с.107).

[13] Bax: “Dəftəri-müfəssəli-əyaləti-Gəncə-Qarabağ” – İstanbul. Başbakanlık Arşivi, № 903.

O ki qaldı, Naxçıvan sancağının icmalının İrəvan əyalətinin icmal dəftərinə aid edilməsinə, bu, birincisi, dəftərdən də göründüyü kimi, ərazi-inzibati tabeçilik prinsipi üzərində qurulmamış, ikincisi də ki, gəlirlərinin böyük əksəriyyətinin (94,1%) sultan və mirmiran xasslarına aid olan və timar sisteminin (bu sistem haqqında aşağıda bəhs olunacaq) demək olar ki, işləmədiyi Naxçıvan sancağı üçün xüsusi bir icmal dəftərinin hazırlanmasına da heç bir ehtiyac qalmırdı. Ona görə də Naxçıvan sancağı ilə bağlı "icmal" məlumatlar İrəvan əyalətinin "icmal dəftəri"nə əlavə edilmişdir.

İrəvan əyaləti ilə bağlı tərtib olunmuş dəftərlərin, xüsusilə, müfəssəl dəftərlərin dəyərli cəhətlərindən biri də, bu ərazi-inzibati vahidinin XVI-XVIII əsrlərdə olan etnik tərkibi barəsində məlumat verməsidir. Doğrudur, müfəssəl dəftərlər tərtib edilərkən vergi mükəlləfiyyəti daşıyan əhali etnik mənsubiyyətinə görə deyil, dini mənsubiyyətinə görə qeydə alınmışdır. Ancaq bu qeyd də bütün yaşayış məntəqələri üçün deyil, müsəlman və xristian əhalinin birgə yaşadıqları yerlər üçün edilmişdir: müsəlmanlar haqqında olan məlumatlar "müslüman", "məhəlleyi-müslümanan", xristianlar haqqında məlumatlar isə "kəbran", "məhəlleyi-kəbran" başlıqları altında verilmişdir. Bununla bərabər, yaşayış məntəqəsi yalnız müsəlmanlardan və xristianlardan ibarət olduğu halda, vergi mükəlləfiyyəti daşıyanlar haqqında məlumatlarda onların hansı dini icmaya mənsub olması qeyd edilməzdi. Ancaq İrəvan əyaləti əhalisinin etnik tərkibini və strukturunu adı dəftərə düşənlərin şəxs adlarına görə müəyyənləşdirmək mümkündür.

1590-cı və 1728-ci il tarixli İrəvan əyalətinin müfəssəl dəftərlərinin və bu dövrlərdə yazılmış Osmanlı tarixi xronikalarının Gelibolulu Ali əfəndinin "Künh-ül-əxbar" və "Nüsrətnamə"si, əslən Ürmiyəli və sultan III Muradın şahnaməçisi və sirr katibi olan Seyyid Loğmanın "Zübdət ət-təvarix"i, İbrahim Rəhimizadənin "Zəfərnaməyi-sultan Muradxan", Kəmani Mustafa ağanın "Rəvan fəthnaməsi" və b. bu əyalətin əhalisinin etnik tərkibi ilə bağlı məlumatlarına əsasən aparılan hesablamalar İrəvan əyalətində türk-müsəlman əhalisinin çoxluq təşkil etdiyini göstərir.

Əlbəttə, tədqiqatımızın özəyini təşkil edən müfəssəl dəftərlərin əhalisinin etnik tərkibi ilə bağlı məlumatları statik xarakterdə olduğuna görə, onlar İrəvan əyalətindəki əhalinin etnik tərkibi haqqında gerçək mənzərəni əks etdirmir. Ona görə də, etnik tərkib məsələsində müfəssəl dəftərlərlə yanaşı, bu dəftərlərin tərtibi illərində və ondan əvvəlki dövrdə yazılmış tarixi xronikaların məlumatlarını əlavə etmək lazım gəlir. Misal üçün, 1590-cı il tarixli İrəvan əyalətinin müfəssəl dəftərinə əsasən apardığımız hesablamalara görə, bütün əyalət üzrə 9.164 vergi mükəlləfiyyəti daşıyan adam qeydə alınmışdır ki, bunların da 8.654 nəfəri evli, 510 nəfəri isə subay kişilər idi (hər ailənin 5 nəfərdən ibarət olduğunu qeyd etsək, bu

dövrdə İrəvan əyalətində 43.780 nəfərin yaşadığını qeyd edə bilərik). Adı dəftərə düşənlərin etnik tərkibinə gəldikdə, bunların 59,1%-ni xristianlar, 49,9%-ni isə müsəlmanlar təşkil etmişdir. Lakin yuxarıda qeyd etdiyimiz kimi, bu məlumatların statik xarakterdə olması, tarixi xronikalara müraciət etmək zərurətini yaradır. Ali əfəndinin "Nüsrətnamə" və İbrahim Rəhimizadənin "Zəfərnamə ..." əsərlərində belə bir maraqlı fakt var: 1579-cu ilin sentyabr ayında, osmanlı ordusu İrəvan şəhərini ələ keçirməzdən əvvəl, Abaran nahiyəsində yaşayan və Çobanbəyi kimi tanınan Əli bəyin üç min evdən artq ulusu onun xahişi ilə osmanlılar tərəfindən Abaran nahiyəsinə köçürülüb, Ərzurum əyalətinin Tükman sancağına yerləşdirilmiş, Əli bəyə də ildə 400 min ağça maaş və sancaqbəyi vəzifəsi verilərək, bu sancağın abadlaşdırılması buyurulmuşdur[14]. Bundan əlavə, Ali əfəndinin və İbrahim Rəhimizadənin adlarını çəkdiyimiz əsərlərində göstərilir ki, Əli bəyin ulusunun Ərzurum vilayətinə köçürülməsindən bir neçə gün sonra, 1579-cu ilin oktyabr ayının 4-də Qarsdan hərəkət edən 40 minlik osmanlı ordusu Şürəkəl livası tərəfindən Arpaçayı keçərək Şərur qəzasının Şərabxana nahiyəsinə girmiş və buradan 20 minə qədər əsir aparmışdır[15]. Əsir aparılanların etnik mənsubiyyəti barədə xronikalarda məlumat verilməsə də, onların hamısının xristianlardan deyil, müsəlman (türk) əhalidən ibarət olmasını söyləməyə sultan III Muradın 28 aprel 1578-ci il tarixli fərmanı əsas verir. Səfəvilərlə müharibədə verilmiş bu fərmanda "rəayadan olan xəracgüzar erməni tayfasının mallarına və canlarına zərər verilməməsi..." əmr edilirdi[16].

1590-cı il tarixli müfəssəl dəftəri nəzərdən keçirdikdə, məhz Abaran və Şərabxana nahiyələrində heç kimin yaşamadığını görürük. Eyni vəziyyət Bazarçayı nahiyəsində, Şərur qəzasının Zar və Zəbil nahiyələrində də müşahidə olunur (görünür bu nahiyələr də 1579-cu ilin oktyabr ayında, Şərabxana nahiyəsinə hücum zamanı boşaldılmışdır).

Müasir türk tarixçilərindən F.M.Kırzıoğlu, Ali əfəndinin "Künh-ül-əxbar" və Seyyid Loğmanın "Zübdət-ət-təvarix" əsərlərinə istinad edərək, 1583-cü ilin avqust ayında osmanlı ordusunun Fərhad paşanın başçılığı ilə Şürəkəl və Talin tərəfdən İrəvan əyalətinə daxil olduğu zaman, İrəvan şəhəri və eyni adlı əyalətin müsəlman (türk) əhalisinin osmanlı ordusunun gəlməsindən xəbər tutaraq buraları tərk edib, Ağrıdağ ilə onun yaxınlığındakı yaylaqlara çəkildiyini və İrəvan şəhəri ilə kəndlərində isə yalnız ermənilərin qaldığını qeyd edir[17].

---

[14] F.M. Kırzıoglu. s.327; 1581-ci il tarixli "Dəftəri-mənasabi-vilayəti-Ərzrum"a görə, Əli bəyə 251.400 ağça gəliri olan xass və Ərzrum vilayətinin İspir sancağının sancaqbəyi vəzifəsi verilmişdir (Sofiya, НБКМ, Фонд I, арх. ед 14646.л.9).

[15] F.M. Kırzıoglu, s.327.

[16] Yenə orada.

[17] F.M. Kırzıoglu, s.346.

İndi isə müfəssəl dəftərin əhalinin etnik tərkibi ilə bağlı məlumatlarını tarixi xronikaların verdiyi faktiki materialların fonunda təkrar nəzərdən keçirək: hesablamalarımıza görə, İrəvan əyalətində yaşayan 43.780 nəfərin 26.949 xristian, 16.831 nəfəri isə müsəlman (türk) olmuşdur. Ancaq müsəlman (türk) əhalisinin sayına 20 min Şərabxana nahiyəsi əhalisinin və Abaran nahiyəsində yaşamış Əli bəyin üç min evdən artıq ulusunu (və yaxud 15 mindən çox adam) da əlavə etsək, müsəlman (türk) əhalisinin sayının 51.831 nəfər (əyalət əhalisinin 67,5%-i) olduğunu müəyyən etmiş oluruq[18].

1590-cı ildən sonra osmanlıların İrəvan əyalətində Səfəvilər dövrü ilə müqayisədə yaratdıqları daha əlverişli həyat şəraiti və xüsusilə də əyaləti ədalətlə idarə etmək üçün tərtib etdikləri qanunnamə doğma yurdlarını tərk etmiş İrəvan əyalətinin türk-müsəlman əhalisinin təkrarən öz yerlərinə qayıtmalarına lazımi imkanlar açmışdır. 1590-cı il tarixli müfəssəl dəftərə istinad edərək söyləyə bilərik ki, həqiqətən də, 1583-1590-cı illər ərzində türk-müsəlman əhalisi İrəvan şəhərinə, İrəvan, Karbi, Karni, Vedi, Aralıq, Talin və Ərmavi nahiyələrinə geri qayıdıb yerləşmiş, Karni, Vedi, Ərmavi, Naxçıvan, Mülki-Arslanlı, Qarabağ, Şərur, Azadciran, Şorlut nahiyələrində osmanlılardan əvvəlki dövrdə olduğu kimi yenə də çoxluq təşkil etmişlər. Bir faktı da əlavə edək. Hesablamalarımıza görə, 1590-cı il tarixli müfəssəl dəftərdə qeyd olunmuş 510 subay kişidən 476-sı (93,3%) türk-müsəlman idi. Bu çoxluğu dinc dövrdə əsaslı demoqrafik dəyişikliklərə, əhalinin nisbətinin türk-müsəlman əhalisinin xeyrinə dəyişəcəyini söyləməyə əsas verən mühüm amil kimi qəbul etmək lazımdır.

XVI əsrin sonu – XVII əsrin əvvəllərində osmanlı idarəsində olmuş İrəvan əyalətinin əhalisinin etnik tərkibində baş vermiş dəyişiklik haqqında statistik məlumatları aşkar etmək və fikir söyləməyin çətinliyi ilk növbədə, bu dövrdə ikinci müfəssəl dəftərin olmamasıdır. Hər 20-30 ildən bir müfəssəl dəftər tərtib edən osmanlılar XVII əsrin əvvəllərində yeni dəftər üzərində işə başlamışdılarsa da, görünür, bu işi tamamlaya bilməmişdilər. Bunun da səbəbini şah I Abbasın 1612-ci ilə qədər İrəvan əyaləti daxil olmaqla Azərbaycanın digər bölgələrini osmanlılardan azad etməsi üçün apardığı müharibələrin nəticəsi olaraq ortaya çıxan qeyri-sabit vəziyyətdə və bu torpaqların osmanlı idarəsindən çıxmasında axtarmaq lazımdır.

1639-1723-cü illər Osmanlı-Səfəvi münasibətlərində qarşıdurmanın aradan qalxması İrəvan əyalətinin demoqrafik vəziyyətinə də öz müsbət təsirini göstərmişdi. 1647-ci ildə Azərbaycanda olmuş osmanlı səyyahı Övliya Çələbi

[18] İrəvan şəhəri və kəndlərindən Ağrıdağ tərəfindəki yaylaqlara çəkilmiş olanların sayı məlum olmadığına görə, hesablamalarda onlar nəzərə alınmamışdırlar.

“Səyahətnamə”sində İrəvanda 2.060 ev[19], 1673-cü ildə İrəvan əyalətinin ərazisindən keçərək İsfahana gedən Jan Şarden isə bu illərdə İrəvan qalasında təxminən səkkiz yüz ev (təqribən 4.000 nəfər) və sakinlərinin hamısının da “təmizqanlı səfəvilər” olduğunu yazırdılar[20]. Naxçıvanda da şəhər əhalisinin sayının artması müşahidə olunur: Övliya Çələbi Naxçıvan şəhərində 10.200, Jan Şarden isə təqribən 2.000 evin olduğunu qeyd edirlər[21].

Övliya Çələbi və Jan Şardenin İrəvan və Naxçıvan şəhərlərinin əhalisinin sayı barədə verdikləri məlumatın tam dəqiq olmasını yəqin etmək mümkün olmasa da, hər halda əyalətdə və şəhərlərdə əhalinin sayında artıma doğru təmayülün yaranmasını söyləmək mümkündür.

XVIII əsrin 20-30-cu illərində olan demoqrafik vəziyyət və əhalinin etnik tərkibi İrəvan əyalətinin osmanlılar tərəfindən ələ keçirilməsinə qədər baş vermiş hadisələrlə şərtlənmişdir. Bu məsələ ilə bağlı maraqlı məlumatlara osmanlı və erməni xronikalarında rast gəlmək mümkündür. Kəmani Mustafa ağanın “Rəvan fəthnamə”si, Abraam Yerevantsinin “1721-1736-cı illər müharibələrinin tarixi” əsərlərində, “Anonim erməni xronikası”nda 1728-ci il tarixli “İrəvan əyalətinin müfəssəl dəftəri”nin məlumatlarını tamamlayan faktlar vardır.

Kəmani Mustafa ağanın “Rəvan fəthnaməsi”ndə osmanlı ordusunun İrəvan şəhərinin kənarında səfəvilərlə apardığı ilk döyüşdə on minə qədər “qızılbaş”ın (türk-müsəlmanın) və ermənin qətlə yetirildiyi, on beş mindən çox qadın, oğlan və qız uşağının əsir düşdüyü qeyd edilir[22]. Lakin İrəvan qalası uğrunda gedən döyüşlərdə istər hücum edən osmanlılar, istərsə də qala müdafiəçiləri cüzi itkilərə məruz qalmış, qala təslim olduqdan sonra isə qalanı tərk etmək istəyənlər üç gün ərzində öz malları ilə Təbriz qapısından sağ-salamat və itkisiz çıxaraq, qaladan uzaqlaşmışdılar[23].

Osmanlıların İrəvan şəhəri və qalası uğrunda apardıqları döyüşləri təsvir edən erməni xronikalarında İrəvanın müdafiəsi tamam başqa yöndə şərh edilir: bu yerlərin səfəvilərə deyil, ermənilərə məxsus olması, osmanlılarla döyüş zamanı səfəvilərin bu bölgə üzərində olan ali hakimiyyətinə baxmayaraq, osmanlılara heç bir müqavimət göstərmədən çəkilib qalada gizlənmələri, şəhər və qalanın isə yalnız və yalnız ermənilər tərəfindən müdafiə edilməsi, müdafiə işlərinin Əliqulu xan

[19] Эвлия Челеби. Книга путешествий, с.155.
[20] Jan Şarden. Parisdən İsfahana səyahət. Fransız dilindən tərcümə edəni Vaqif Aslanov. Bakı, 1994, s.21.
[21] Эвлия Челеби. Книга путешествий, s.114; Jan Şarden, Parisdən İsfahana səyahət, s.63.
[22] M.Aktepe. 1720-1724 Osmanlı-İran munasebetleri ve Silahşor Kemani Mustafa ağanın Revan fetihnamesi. İstanbul, 1970, s.46-47.
[23] M.Aktepe, s.68.

tərəfindən deyil[24], Qriqori Vardapet tərəfindən təşkil edilməsi, osmanlıların qalanı və şəhəri ala bilmək iqtidarında olmamaları, döyüşlərin yalnız katalikosun işə qarışmasından və xahişindən sonra dayandırılması, bunun müqabilində isə osmanlıların İrəvanın təslimi ilə bağlı şərtləri xaincəsinə pozaraq, döyüşlərin dayandırılmasından sonra qalaya daxil olub erməni döyüşçülərini kütləvi şəkildə qətlə yetirməsi fikri əsas yer tutur[25].

İrəvanın müdafiəsində türk-müsəlman əhalisi ilə bərabər ermənilərin də iştirakını inkar etmədən, bir neçə məqamı nəzərə çatdırmağı məqsədəuyğun hesab edirik. Əsərlərində işıqlandırdıqları məsələlərin xronologiyasından da göründüyü kimi, Abraam Yerevantsi də, anonim xronikanın müəllifi də istifadə etdyimiz əsərlərini 1736-cı ildən sonra yazıb tamamlamışdılar. Bu dövrdə osmanlılar Azərbaycandan tamamilə çıxarılmış, Səfəvilər dövləti süqut etmiş, ölkədə ali hakimiyyət Afşarların əlinə keçmişdi. Bu dövrün erməni müəllifləri də siyasi konyunkturanı erməni kilsəsinin (strateji baxımdan erməni icmasının) maraqları üçün istifadə etməyə çalışmışdılar. Misal üçün, bu müəlliflərin vurğulamaq istədikləri bu idi ki, ermənilər də Afşarlar kimi osmanlıların hakimiyyətini qəbul etməyib, onlarla vuruşmuş, dövləti idarə edə bilməyən, ölkəni istila edənlərdən xilas etməyi bacarmayan Səfəvilər hakimiyyətini inkar etmiş və bu yöndə aparılmış fəaliyyətin əsas yükünü katalikosun rəhbərlik etdiyi erməni kilsəsi başda olmaqla erməni icması həyata keçirmişdi.

Erməni xronikalarındakı məlumatlara görə, guya etnik baxımdan İrəvan şəhəri və qalasının sakinləri ermənilər olmuşdu. Halbuki, İrəvan uğrunda gedən döyüşlərdə şəxsən iştirak etmiş Kəmani Mustafa ağanın məlumatları bunun əksini söyləməyə imkan verir: İrəvan qalasının təslim olunması ilə əlaqədar osmanlı ordusunun qazisinin məktubu osmanlıların tərəfinə keçmiş İrəvan əyalətinin bəyləri, İrəvan ətrafındakı kəndlərin kətxudaları, Karvansara kəndinin ağsaqqalları vasitəsi ilə ermənilərə deyil, Kəmani Mustafa ağanın yazdığı kimi "İrəvan qalasının üləma və əyanına" ünvanlanmış, bu məktuba cavab olaraq qalanın təslim olunması şərtini osmanlılarla bir neçə dəfə müzakirə etməyə gəlmiş şəxslər də ermənilər deyil, "qızılbaş"lar olmuş və ümumiyyətlə, qalanın təslim olunmasını qəbul etməyən şəxs də qalanın müdafiəısində iştirak edən erməni dəstəsinin başçısı Qriqori Vardapet deyil, məhz qalanın müdafiəsini təşkil etmiş Əliqulu xan olmuşdu[26].

---

[24] M.Aktepe, s.50; Bu şəxs ilə 1722-ci ildən İrəvan (Çuxursə`d) bəylərbəyisi təyin olunmuş Kaxetiya çarı Məhəmmədqulu xan, fikrimizcə eyni şəxs olmalı, sadəcə olaraq bu, Kəmani Mustafa ağanın və yaxud da onun əsərinin katibinin təhrifidir.

[25] Абраам Ереванци. История войн 1721-1736 г. г.Ереван, 1939, с.19-31, 25,28; Анонимная армянская хроника. Пер. с турецкого и примечания З.М.Буниятова. Баку, 1988, с.12-13.

[26] M.Aktepe, s.45-46, 48-49, 50-51.

O ki qaldı İrəvan qalasının erməni katalikosunun vasitəçilik etməsindən sonra təslim olunmasına[27], bu, qala müdafiəçilərinin və sakinlərinin ermənilərdən ibarət olması ilə əlaqədar deyildi. Sadəcə olaraq, osmanlıların Əliqulu xanla yerli boy bəyləri, kətxudaları, ağsaqqalları vasitəsilə apardıqları danışıqlar səmərəsiz olmuş və qalanı alarkən yersiz itki verməmək xətrinə başqa, növbəti vasitəçi kimi bu dəfə də erməni katalikosu seçilmişdi. Vasitəçilik öz səmərəsini verdi və qala osmanlılara təslim oldu.

Beləliklə, 1724-1728-ci illər ərzində İrəvan əyalətinin demoqrafik vəziyyətində osmanlılarla səfəvilər arasında İrəvan şəhəri ətrafında olmuş döyüş nəticəsində dəyişikliklər baş vermişdi (bu döyüşdə yuxarıda qeyd etdiyimiz kimi, on min "qızılbaş" və erməni qətlə yetirilmiş və on beş min qadın və uşaq əsir düşmüşdü). Lakin İrəvan qalasının müdafiəsi zamanı böyük bir itkinin olmadığını da qeyd etmək gərəkdir.

İndi isə nəzərdən keçirdiyimiz məsələ ilə bağlı İrəvan əyalətinin 1728-ci il tarixli müfəssəl dəftərinə müraciət edək. Müfəssəl dəftərə görə, əyalət üzrə qeydə alınmış 15.095 nəfərdən 93,5%-i (14.122) evlilər, 6,5%-i isə (973) subaylar idi. Hesablamalarımıza görə bütün əyalətdə yaşayan 71.583 nəfərdən 43.784 nəfəri (61,2%) türk-müsəlman, 27.799 nəfəri (38,8%) isə xristianlar olmuşdu. Ancaq osmanlıların İrəvan əyalətinə qarşı hərəkət edərkən seçdikləri əsas hədəf şiələr olduğu üçün[28], qətlə yetirilənlərin çoxusunun da müsəlman olması şübhə doğurmur və eyni zamanda İrəvan əyalətindəki türk-müsəlman əhalisinin etnik tərkibdə olan nisbətini, 61,2%-i minimum kimi qəbul etmək lazımdır.

Nəhayət, İrəvan şəhərinin əhalisinin etnik tərkibi barəsində. Müfəssəl dəftərdə 428 evli türk-müsəlman, 224 evli və 9 subay xristian qeydə alınmışdı. Evlilərin ailə tərkibini beş nəfərdən götürməklə, İrəvan şəhərində yaşayan 3.369 nəfərin 63,5%-i türk-müsəlman, 36,5%-i isə xristian olduğunu qeyd edə bilərik. Etnik tərkiblə bağlı məsələni bununla bitirmək olardı, ancaq Abraam Yerevantsinin əsərində və "Anonim erməni xronikası"nda İrəvanda yüz xristian qaraçı ("boşa") ailəsinin təqribən 500 nəfərin yaşamasının qeyd edilməsi[29] bu məsələyə bir daha nəzər salmağı tələb edir. Şəhərdə 500 nəfər xristian qaraçının yaşaması (şəhər əhalisinin təqribən 14,9%-i) erməni xronikalarının müəlliflərinin iddia etdikləri

---

[27] Абраам Ереванци, с.28.

[28] 1135/1722-ci il tarixli fetvanın mətni üçün bax: Y.Halacoğlu. XIV-XVII yüzyıllarda Osmanlılarda devlet ve sosyal yapı. Ankara, 1991, s.187.

[29] Yerevantsi, s.21; Abraam Yerevantsinin qeyd etdiyinə görə İrəvanın müdafiəsi zamanı xristian qaraçılardan ölən olmamış, yalnız qırx nəfəri yaralanmışdır. (Абраам Ереванци, с.23).

kimi ermənilərin İrəvan şəhərində əksəriyyət təşkil etməsinə deyil, daha az sayda olmalarını – 21,6% -sübut etməkdədir[30].

İrəvan əyaləti ilə bağlı tərtib olunmuş dəftərlər osmanlı tabeliyində olduqları dövrdə İrəvan, Naxçıvan və Ordubadın şəhər həyatında dəyişmələrin baş verdiyini göstərirlər: osmanlı dövründə İrəvan, Naxçıvan və Ordubad abadlaşdırılmış, came və məscidlər, yeni qala divarları inşa edilmiş, köhnələri bərpa olunmuş, ticarət canlandırılmış, alqı-satqı qaydaları nizama salınmış, vəqflərin fəaliyyəti bərpa edilmiş və başqa işlər görülmüşdür[31].

İrəvan əyalətinin dəftərləri bölgədəki şəhərlərin demoqrafik vəziyyəti, topoqrafiyası, dini və sosial tikililər və başqaları haqqında bizə məlum olmayan faktlar verir. Misal üçün, əgər XVI əsrin sonunda şəhər əhalisi əyalət əhalisinin 10,9%-ni təşkil edirdisə, (bu dövrdə Naxçıvanda 4.208, İrəvanda 2.000, Ordubadda isə 1.357 nəfər yaşayırdı), XVIII əsrin 20-30-cu illərində Naxçıvan sancağının İrəvan əyalətinin ərazi-inzibati tabeçiliyindən çıxdığı üçün, əyalətin yeganə şəhəri olan İrəvanda əhalinin sayında artım müşahidə olunsa da (bu dövrdə şəhərdə 3.369 nəfər adam var idi), şəhər əhalisinin bütün əyalət əhalisi içindəki nisbəti xeyli aşağı düşmüş və 4,7% olmuşdu.

Şəhər topoqrafiyasına gəldikdə, bu sahədə də xeyli dəyişikliklərin şahidi oluruq. Əgər 1590-cı ildə İrəvan şəhəri 6 məhəlləli (Dərəgöy, Mardiros, Məzərə (?), Kiçik Qayıq, Əyali, Börkçü Ohan), Naxçıvan şəhəri 11 məhəlləli (Qaziyi-cahan/başqa adı Xacə Mirixan idi/, Seyyid Hüseyn, Molla Əhməd, Mirzəbəy, Şahab, Günbəz/başqa adı Nuri-kəmanlar idi/, Bala, Hacıbəy, Xuzəmərək, Tizxiran, Qala, məhəlleyi-kəbran), Ordubad şəhəri isə 5 məhəlləli (Mingis, Anbaras, Sərşəhər, Kürdətal/başqa adı Meydan idi/ və müsəlmanlarla qeyri-müsəlmanların birgə yaşadıqları məhəlleyi-əraminə) şəhərlər idilərsə, 1728-ci il İrəvan əyalətinin müfəssəl dəftərinə görə, İrəvan şəhərində 4 məhəllə (Köhnə şəhər, Dəmirbulaq,

---

[30] XVIII əsrin sonunda – XIX əsrin əvvəllərində İrəvan xanlığının ərazisində xristian qaraçılar yaşamaqda davam etmiş (С.Ереванци. Джамбр. М., 1958, с.370; И.Шопен. Исторический памятник состаяния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб., 1852, с.544, 632), hətta XIX əsrin 20-30-cu illərində Osmanlı imperiyasından Rusiyaya köçürülən və müasir Ermənistanın şimalına və Gürcüstanın Axaltsix bölgəsinə yerləşdirilmiş ermənilər arasında xeyli xristian qaraçı da olmuşdu (ətraflı məlumat üçün bax: Г.Ваницuан. Армянские цыгане. – СМОМПК, 1901, вып. 29, с.45-70).

[31] Bax: İrəvan əyalətinin müfəssəl dəftəri, № 633, s.4-12, 113, 120, 121, 124, 216; İrəvan əyalətinin icmal dəftəri № 895, s.18; Jan Şarden s.22; Z.Bünyadov, H.Məmmədov. Naxçıvan dəftəri – "Ədəbiyyat və incəsənət" qəzeti, 17.09.1985; Z.M.Bünyadov, H.M.Məmmədov. Ordubad – "Yeni Ordubad" qəzeti, 25-27 iyun, 4, 6, 8 iyul 1986; З.М.Буниятов, Г.М.Мамедов. Пространный дефтер санджака Нахичевань 1727 года. – в сб.: «Средневековый Восток: история и культура», Б., 1990, с.112-123; F.M.Kırzıoğlu, s.346-347; B.Kutukoğlu, s.135-136.

Dərəkəndi, Təpəbaşı) qalmışdı. Yeri gəlmişkən qeyd edək ki, 1727-ci ildə Naxçıvan şəhərində iki – Aşağı və Yuxarı məhəllələr, Ordubadda isə dörd – Anbaras, Sərşəhər, İçtərəngə, Mingis məhəllələri var idi)[32]. Şəhər məhəllələrinin azalması şəhər əhalisinin köçüb getməsi ilə deyil, əksinə, onların böyüyüb birləşməsi və yeni adla adlandırılması ilə izah edilə bilər.

Dəftərlərin və səyyahların verdiyi məlumata görə, İrəvan əyalətinin şəhər və kəndlərində xeyli came və məscid olmuşdur. Misal üçün, 1590-cı ildə Naxçıvan şəhərində 3 came və 10 məscid (cameyi-Qızıl Arslan, cameyi-Məhməd kətxuda, cameyi-Şərif, Ağa məscidi, Hacı Xəlil məscidi, Keçəçi məscidi, Molla Əhməd məhəlləsinin məscidi, Sultan Mahmud məscidi, Hacı Sani məscidi, Bəsri məscidi, Şeyx Əminəddin məscidi, Ətməlik (?) məscidi, İsmayilan məscidi), XVII əsrin ortalarında Övliya Çələbinin yazdığına görə, şübhəli görünsə də, 70 came və 40 məscid, XVIII əsrin əvvəllərində sultan Murad camesi, Həzrət paşa camesi, eyni dövrdə Ordubadda isə sultan Murad camesi olmuşdu[33]. XVI əsrin sonunda İrəvan şəhərində olan came və məscidlər haqqında dəftərlərdə məlumat olmasa da, XVII əsrin ortalarında Övliya Çələbi və Jan Şarden burada böyük bir camenin olduğunu qeyd etmişdilər. XVIII əsrin sonu 30-cu illərində isə İrəvan bəylərbəyisi İbrahim paşa İrəvan qalasında sultan I Mahmudun (1730-1756) şərəfinə came inşa etdirmişdi[34].

Müharibə illərində İrəvan əyalətinin təsərrüfat həyatına vurulan ziyanın tezliklə aradan qaldırılması üçün osmanlılar tərəfindən görülən mühüm tədbirlərdən biri də vəqflərin fəaliyyətini bərpa etmək olmuşdu. 1590-cı il tarixli İrəvan əyalətinin müfəssəl dəftəri belə vəqflərin daha çox Naxçıvan qəzasının ərazisində olduğunu göstərir. Osmanlılar onlardan əvvəl bu bölgədəki vəqflərin təsisçilərinin şərtlərini pozmadan fəaliyyət göstərməsinə fikir vermişdilər. Misal üçün, Naxçıvan şəhərinin qazisi Mövlana Süleyman iki üzüm bağının vergilərini ödədikdən sonra, gəlirinin yerdə qalan hissəsini Naxçıvandakı cameyi-şərifin nəzdində tikdirdiyi əczaxananın və şəhərdəki Şeyx Əminəddin məscidinin xərclərini qarşılamaq üçün ayırmış, osmanlılar isə bu şərti eyni ilə dəftərə salmışdılar. Ordubad şəhər qazisi Baqi əfəndi də gəlirinin bir qismini "Naxçıvanda cameyi-kəbirdə hər gün Qur`ani-əzimdən bəzi cüz`i şərif oxuyanlara və Naxçıvanda olan Şeyx Əminəddin məscidinin xərclərinin ödənməsi" üçün ayırmışdı. Qarabağ nahiyəsinin Acısu çiftliyindən əldə edilən gəlir də vəqfin təsisçisi tərəfindən Naxçıvandakı cameyi-şərifin imam, xətib və müəzzinlərinə

---

[32] İrəvan əyalətinin müfəssəl dəftəri, № 633, s.24-28, 100-108; İrəvan əyalətinin müfəssəl dəftəri, № 901, s.24-32; Naxçıvan sancağının müfəssəl dəftəri, № 905, s.10-12, 200-218.

[33] İrəvan əyalətinin müfəssəl dəftəri, № 633, s.100-107; Naxçıvan sancağının müfəssəl dəftəri, № 905, s.23-24, 218-219; Эвлия Челеби, s.114-115.

[34] İrəvan əyalətinin icmal dəftəri, № 895, s.18; Эвлия Челеби, s.155; Jan Şarden, s.22.

maaş şəklində verilməsi şərti qoyulmuşdur. Bitlis hakimi Şərəf xanın Maku sancaqbəyisi Əvəz bəyin Osmanlı sultanına yazdıqları məktuba əsasən, Naxçıvan nahiyəsinin Cəhri, Qıvraq kəndləri və Nürgüt məzrə`əsi əvvəlki dövrlərdə olduğu kimi, Naxçıvan əyanından olan mövlana Məhəmmədin övlad vəqfi kimi qeydə alınmışdır və s.[35] XVII əsrdə İrəvan əyalətinin ərazisindəki vəqflər haqqında məlumatlar azdır. Bununla belə Övliya Çələbinin yazdığına görə, İrəvan şəhəri yaxınlığında olan Seyfəddin və Xocabağı kəndləri İrəvan xanının, 1000 evdən ibarət və sakinlərinin hamısının şiə olan Sədərək kəndinin gəliri isə imam Əli Rzanın vəqfi olmuşdur[36]. XVIII əsrin 30-cu illərində İrəvan əyalətində olan iki vəqf haqqında məlumat vardır: yuxarıda qeyd etdiyimiz kimi, İrəvan bəylərbəyisi İbrahim paşa İrəvan şəhərində və İğdır nahiyəsinin İbrahimabad kəndində sultan I Mahmudun (1730-1736) şərəfinə iki cameyi-şərif tikdirmiş İbrahim paşanın və İrəvan qazisi mövlana Əhməd Bəhaəddinin sultana müraciətindən sonra və sakinlərinin hamısının sünnü olduğu İbrahimabad kəndinin 19 min ağçalıq illik gəliri cameyi-şərifin xidmətçilərinin maaş və digər xərclərini ödəmək üçün 1733-cü ildə vəqf elan edilmişdi[37].

"Əhli-elm", üləma, seyyidlər, tanınmış şeyxlərin, misal üçün Naxçıvan nahiyəsinin Yollu kəndində dəfn olunmuş Şeyx Yusifin övladları "təkalifi-örfiyyə" kateqoriyasına daxil olan vergilərdən azad olunmuşdular. Vergilərdən azad olunmaq üçün yerli əhaliyə əllərində Ağqoyunlu və Səfəvilər dövründən qalma sənədləri təqdim etmələri kifayət edirdi[38].

Osmanlı dövrü İrəvan əyalətinin kənd təsərrüfatı gəliri baxımından qonşu Gəncə-Qarabağ və Tiflis əyalətlərindən geri qalırdı. İstər XVI əsrin sonunda, istərsə də XVIII əsrin 20-30-cu illərində İrəvan əyalətində əkilən dənli bitkilərin çeşidində heç bir yenilik olmamışdı. Bununla bərabər üzümçülük və qoyunçuluq çox inkişaf etmiş, ancaq İrəvan əyalətində qeyri-müsəlman əhalinin də yaşamasına baxmayaraq, donuzçuluq inkişaf etməmişdi.

Dəftərlərin istər tarixçi, istərsə də dilçilər üçün maraqlı olan yönlərindən biri də bizcə yer adları olmalıdır[39]. XVI əsrin sonunda İrəvan əyalətində 1.883 kənd, 62 məzrə`ə, 5 ciftlik və 1 zəmin adı qeydə alınmışdısa, XVIII əsrin 20-ci illərində burada ərazi-inzibati dəyişikliklər nəticəsində abad kəndlərin sayı 1.423, boş qalmış kəndlərin sayı 89, məzrə`ələrin sayı 120 olmuşdu. Bundan əlavə bu

---

[35] İrəvan əyalətinin müfəssəl dəftəri, № 633, s.113, 124, 216, 285.
[36] Эвлия Челеби, s. 112-113, 149, 155.
[37] İrəvan əyaləti icmal dəftəri, № 895, s.18.
[38] İrəvan əyalətinin müfəssəl dəftəri, № 633, s.114, 117, 120, 121, 210, və b.
[39] XVI əsr İrəvan vilayətinin yer adları haqqında bax: Əlavə 2; 1921-1988-ci illər ərzində Ermənistanda dəyişdirilmiş türk mənşəli yaşayış məskənlərinin siyahısı üçün bax: Nazim Mustafa. Erməni saxtakarlığı – erməni xəyanəti. – "Elturan /Milli məsələlər/" jurnalı 1994 № 1-2, s.35-47.

dövrdə dəftərdə 9 yaylaq və bir otlaq adı qeydə alınmışdır. Ümumiyyətlə, bu yer adlarının "başqa adı"nı da bu siyahıya əlavə etsək hər iki dövrdə yer adlarının sayı iki minə yaxın olmuşdu.

## 1728-Cİ İL TARİXLİ "İRƏVAN ƏYALƏTİNİN İCMAL DƏFTƏRİ".

Təqdim etdiyimiz "İrəvan əyalətinin icmal dəftəri" Osmanlı imperiyasının hərbi, sosial və iqtisadi strukturunu əks etdirən timar sistemi ilə əlaqəli olduğu üçün, icmal dəftərini araşdırmazdan əvvəl, timar sisteminin mahiyyəti haqqında qısa məlumat vermək istərdik[40].

Osmanlı imperiyasında üç (miri, mülk, vəqf) hüquqi kateqoriyaya ayrılan və gəlir təmin edən ərazidən böyük əhəmiyyət verildiyi miri (dövlət) ərazinin hərbi xidmət, müəyyən vəzifə və öhdəçilik qarşılığında gəlir qaynaqları üzərində ayrı-ayrı şəxslərin səlahiyyətinin tanınması timar sistemi kimi tərif edilir.

Həcmi dövlət tərəfindən müəyyən edilən gəlir qaynağının ümumi adı "dirlik" idi. Başda sultan olmaqla yüksək vəzifəli dövlət adamlarına verilən dirliklərə xass, onlardan rütbəcə aşağı olanlara verilən dirliklərə zeamət, süvarilərə (sipahi) verilənlərə isə timar deyilirdi. Adlarını qeyd etdiyimiz dirliklər eyni zamanda gəlirlərinin həcminə görə də bir-birindən fərqlənirdilər: xassların illik gəliri 100 min ağçadan yuxarı olmuş, zeamətlərin illik gəliri 20 min ağça ilə 99.999 ağça arasında dəyişmiş, timarların illik gəliri isə 20 min ağçadan aşağı müəyyən edilmişdir.

Xasslar və zeamətlər sahiblərinin vəzifədə olduğu müddətə verilirdi. Tutduqları vəzifədən çıxdıqdan və yaxud çıxarıldıqdan/öldükdən sonra bu vəzifə sahiblərinin xass və zeamətləri onların yerinə təyin edilənlərə verilirdi. Sahiblərinin qanuna zidd hərəkəti müşahidə edilmədikcə, timarlar onlara ömürlük verilir, öldükdən sonra da müəyyən edilmiş şərtlərlə oğluna verilirdi. Lakin övladına timarın tam gəliri deyil, yalnız "qılınc" adı verilən və 3 min ağçadan artıq olmayan əsas hissəsi verilirdi. Timar sahibinin sağlığında göstərdiyi xidmətlərə görə "tərəqqi" adı ilə verilən əlavə gəlirlər isə timar sahibinin oğluna bu dirlik üçün müəyyən edilmiş şərtləri üzərinə götürdüyü halda verilirdi.

Dirlik sahibləri dirliklərinin təsərrüfat və digər idarə məsələləri üçün məsuliyyət daşıdıqlarına görə, qanunnamələrdə dirlik sahiblərinə "sahibi-ərz" deyilirdi. "İrəvan əyalətinin icmal dəftəri"nə sonradan dərkənar şəklində edilmiş

---

[40] Timar sistemi haqqında ətraflı bax: O.d.Barkan. timar.-İA, 1972, s.XII, s.286-333; eyni müəllif. Feodal düzen ve osmanlı timari. - O.d.Barkan. Türkiyede toprak meselesi. Toplu eserler. I. İstanbul, 1980, s.873-895; N.Beldiceami. XIV yüzyıldan XVI yüzyıla Osmanlı devletinde timar. Çev. M.A.Kılıcbay. Ankara, 1985; H.İnalcık. Adaletnameler. – "Belgeler", 1967, s.II, s.49-165 və s.

əlavələrdə istifadə olunmuş “sahibi-ərz” terminini “torpaq sahibi” şəklində tərcümə etmişiksə də, bu dirlik sahibinin torpaq üzərində mülkiyyəti mənasında deyil, sadəcə olaraq, bu dirliyin ərazisində istehsal ilə məşğul olanların ödədikləri vergilərin öz xeyrinə toplanılması hüququ mənasında başa düşülməlidir. Bir sözlə, dirlik sahibləri torpağın sahibi olmamış, lakin dirliyin təsərrüfat həyatına nəzarət etməli, müfəssəl dəftərdə göstərilən vergiləri toplamalı, müharibə olduğu dövrdə bir çağırışçı kimi, timar sahibləri hər üç min ağça gəliri üçün bir yaraqlı süvari çıxarmalı idilər.

Bu üsul ilə Osmanlı imperiyasında dövlət vergilərin toplanılıb mərkəzi xəzinəyə göndərilməsinin təşkili kimi gərəksiz bir işdən qurtulur və vergilərin toplanması işini dirlik sahiblərinin üzərinə qoyurdu. Beləliklə, dövlət dirlik sahiblərinə eyni zamanda iki funksiyanı yerinə yetirdirdi: təsərrüfat həyatına nəzarət etdirir və müharibə dövründə orsunun əsasını təşkil edən süvarilər bölümünü formalaşdırırdı.

Ümumiyyətlə, timar sistemi üç təməl dayağın (dövlət-rəaya-dirlik sahibi) münasibətlərinin qanuni əsasını müəyyən edərək, torpağın mülkiyyətini (“rekabe”) dövlətə, torpaqdan istifadə haqqını (“tasarruf”) kəndliyə, istehsalçının dövlətə ödəyəcəyi vergilərin toplanması hüququnu (qanunnamələrdə “nema”, faiz/gəlir mənasında da) dirlik sahiblərinə aid etmişdi.

Əkilib-becərmə üçün yararlı olan ərazi kəndliyə ömürlük verilir və bu ərazi üçün kəndli tapu (torpağın pasportunu) alırdı. Kəndli öldüyü halda əkib-becərdiyi torpaq sahəsi mirasa çevrilirdi. Torpaq əkib-becərən kəndli qarşısında bir neçə şərt qoyulurdu ki, bunlardan bir neçəsini qeyd edək: müfəssəl dəftərdə göstərilən vergiləri lazım olan həcmdə və qaydada dirlik sahibinə verməli, ona verilən torpaq sahəsini səbəbsiz tərk etməməli və əkilib-becərilməmiş qoymamalı idi. Əks təqdirdə kəndliyə qarşı ölçü götürülürdü. Misal üçün, ona verilən torpağı üç il əkib-becərməzdisə, dirlik sahibi torpaq sahəsini kəndlidən alıb, tapu ilə başqa birisinə verir, əgər heç bir səbəb olmadan kəndli torpaq sahəsini atıb, kənddən çıxıb gedərdisə, dirlik sahibi on beş il ərzində onu axtarıb tapıb, geri qaytara bilərdi. Lakin bu təhkimçilik kimi başa düşülməməlidir: kəndli öz torpaq sahəsini əkib-becərmək istəməzdisə, torpaq sahəsinin əkilib-becərilməməsi nəticəsində dirlik sahibinə, dolayısı ilə də dövlətə dəyə biləcək ziyanı “çiftbozan” vergisi adı ilə əvvəlcədən ödəyir, sonra isə istədiyi yerə gedər, ya da ki, kənddə qalıb əkinçiliklə bağlı olmayan, digər gəlir gətirən sahə ilə, misal üçün gəlir vergisi ödəməklə sənətkarlığın hər hansı bir sahəsi ilə, ticarətlə və s. məşğul ola bilərdi.

Bununla bərabər, dirlik sahibinin də kəndli qarşısında öhdəçilikləri var idi: dirlik sahibi ona verilən dirlik ərazisində əmin-amanlığa cavabdeh olan şəxs kimi, bölgədə asayişi qorumalı, kəndlinin canının, malının, mülkünün toxunulmazlığını və eyni zamanda kəndliyə təsərrüfat işlərində lazım ola biləcək istehsal alətləri,

toxum və gübrə ilə təmin etməli, kəndliyə nəqliyyat çətinliyi yaratmadan, əvvəlcədən razılaşdırılmış yerdə natural vergiləri toplamalı idi.

Natural vergiləri ödədikdən sonra, kəndli artıq qalan məhsulunu sancaq daxilindəki bazarda sata bilərdi. Əgər sancağın ehtiyacından artıq mal istehsal edilmişdisə, kəndli məhsulunu qonşu, xüsusilə də ehtiyacı olan sancağa aparmaqla, orada qiymətlərin süni şəkildə aşağı saldırılmasının və yerli istehsalçıya ziyan vurulmasının qarşısını almış olurdu.

Ümumiyyətlə isə, osmanlı idarə sistemində, xüsusilə ərazi-inzibati quruluşun müəyyənləşdirilməsində böyük əhəmiyyət verilən sancağın sərhədlərini osmanlılar gəlişigözəl şəkildə deyil, o yerin əhalisinin və eyni zamanda işçi qüvvəsinin sayını, torpaqlarının əhalisini ərzaqla təmin etmək baxımından məhsuldarlığını müəyyən etdikdən sonra təyin edirdilər. Buna görə də, təbii fəlakətləri çıxmaq şərtilə orta əsrlərdə osmanlılar kənd təsərrüfatı məhsullarının qıtlığı problemi ilə üzləşməmişdilər.

Timar sistemində vergi mükəlləfiyyəti daşıyanların ailə vəziyyətindən (evli, subay) asılı olaraq, himayəsində olan adamların sayı nəzərə alınıb “dönüm” ilə ölçülən torpaq sahəsi (“çift”) verilirdi. Əkin üçün ayrılan torpaq sahəsi məhsuldarlığına görə 70-150 dönüm, (1,-4 – 2,-8 hektar) arasında dəyişirdi.

Kənd yerlərində yaşayan dirlik sahiblərinin özlərinin də əkib-becərmə üçün torpaq sahəsi olmuş, lakin sahəsi baxımından onların torpaq sahəsi kəndlilərdə olan torpaq sahəsindən artıq ola bilməzdi. Dirlik sahibləri əkib-becərdikləri torpaq sahəsi üçün ödənəcək vergi də daxil olmaqla bütün vergilərdən azad idilər.

XVI əsrin sonuna qədər normal fəaliyyət gəstərmiş timar sistemi bu dövrdə xüsusilə nəzərə çarpan əhali artımı nəticəsində öz funksiyasını yerinə yetirə bilməmiş, sonra isə iflic vəziyyətinə düşmüşdür. Əhalinin artımı və bununla bağlı olaraq boş olan əkilən torpaqların azalması, “çift”lərin parçalanmasına (xırdalanmasına) və eyni zamanda cəmiyyətdə “xüsusi xidmətləri” olan şəxslərin çoxalması müqabilində boş dirliklərin olmaması ilə əlaqədar dirliklərin, xüsusilə timarların illik gəlirinin bu yeni şəxslər arasında bölünməsinə gətirib çıxarmışdır. Gəliri az olan və yaxud da azalan dirlik sahibləri müharibə dövründə əsgər çıxara bilməmiş və əksər hallarda müharibədə iştirak etməkdən açıq şəkildə boyun qaçırmış, dirliyin təsərrüfat həyatını nəzarətsiz qoymuş, kəndlilərin əmin-amanlıq içində yaşamasını təmin etməkdən imtina etmişdilər. Bu isə öz növbəsində dirliklərin mövcud olmasına baxmayaraq, timar sisteminin mahiyyətinin itirilməsinə gətirib çıxarmışdı.

Ordunun dirlik sahibləri və onların çıxardıqları əsgərlərdən mütəşəkkil olan süvarilərdən məhrum olunması, dövləti daimi, maaşlı əsgər saxlamağa və onlara maaş kimi ödənəcək vəsaitin qaynağını aramağa sövq edir. Belə qaynaq qanuna zidd hərəkət edən, öz funksiyasını yerinə yetirməyən dirlik sahiblərinin dirlikləri

olmuşdu: illik gəliri icmal dəftərə görə müəyyən edilən dirliklər dövlət tərəfindən iltizama verilməyə başlanır.

İltizam üsulu qanunla müəyyən edilmiş dövlət gəlirinin (vergilərinin) müəyyən bir hissəsinin (müqatiə) toplanması şərtlərini üzərinə götürmüş mültəzim tərəfindən öz xeyri də nəzərə alınmaqla yığılıb xəzinəyə təhvil verilməsi üsulu idi.

İltizam üsulunun geniş yayılması, gəlir qaynaqlarının müqatiəyə ayrılması timar sisteminin əhəmiyyətini heçə endirmişdir. "İrəvan əyalətinin icmal dəftəri"nin tərtibi də məhz bu dövrə təsadüf edir.

İcmal dəftərə görə, İrəvan əyalətində miri ərazinin dirlikləri xass, zeamət və timar formasında təmsil olunmuşdular.

Sultan və bəylərbəyi xasslarından ibarət olan xasslar istər illik gəliri, istərsə də gəlir qaynaqlarının coğrafiyası baxımından diqqəti cəlb edirlər. Bunların arasında da sultan xasslarının (xasshayi-humayun) gəliri yüksək olmuşdur. Naxçıvan sancağı da daxil olmaqla bütün əyalət üzrə gəlirin (12.283.819 ağça) 73,3%-i (8.998.339 ağça) sultan xasslarının payına düşürdü. Eyni vəziyyəti sultan xasslarının digər qaynaqlarına da aid etmək olar: əyalətdə qeydə alınmış 1.798 gəlir götürülən obyektlərin (kənd, məzrə`ə, yaylaq, otlaq və s.) 1.120-si (63,3%) sultan xasslarının idi. İllik gəliri 727.285 ağça və yaxud əyalət gəlirinin 5,9%-ni təşkil edən bəylərbəyi xasslarına (xasshayi-mirmiran) Qırxbulaq, Karbi, Karni nahiyələrinin 19 kəndinin, Əlincə nahiyəsinin Xaçaparaq kəndinin və İrəvan əyalətinin bir neçə qışlağının illik gəliri verilmişdir.

Ümumiyyətlə, İrəvan əyalətinin illik gəlirində xassların gəlirinin xüsusi çəkisi 79,2%-ə (9.725.624 ağça) bərabər idi (Naxçıvan sancağında – 94,1% idi).

Zeamətlərə gəlincə, qeyd etmək lazımdır ki, sayı 15 olan bu dirlik forması Naxçıvan sancağı ərazisində olmamış, Karbi nahiyəsində 9 zeamət və hərəsində bir zeamət olmaqla Qırxbulaq, Karni, Karbi, Vedi, Abaran, Dərəçiçək nahiyələrində və Şürəkəl livasında qeydə alınmışdı. Adlarını çəkdiyimiz ərazi-inzibati vahidlərinin 28 kəndinin, 12 məzrə`əsinin və 6 qışlağının 335.300 ağçaya bərabər illik gəliri (əyalət gəlirinin 2,7%-i) zeamətlər üçün ayrılmışdı.

Bu zeamətlərin altısının gəliri 20.000 ağça, dörd zeamətin gəliri 21.000-23.000 ağça, üçününkü 23.000-25.000 ağça və ikisinin gəliri 25.000-30.000 ağça arasında olmuşdu. Göründüyü kimi, yayılma coğrafiyası məhdud olan zeamətlərə ayrılmış illik gəlir zeamətlər üçün nəzərdə tutulmuş illik gəlirin minimum həddində idi.

Gəlir obyektlərinin sayı və əyalətin illik gəlirindən ayrılan payın həcmi baxımından timarlar sultan xasslarından sonra ikinci yerdə idilər. "İrəvan əyalətinin icmal dəftəri"ndə Naxçıvan sancağında olan olan 32 timar da daxil olmaqla Şürəkəl livasında (122), Karbi (104), Karni və Vedi (84), Qırxbulaq (78), Abaran (52) və Dərəçiçək (31) nahiyələrində cəmi 503 timar qeydə alınmışdır ki,

bunlardan da iyirmi birinin gəliri bir neçə şəxs arasında bölüşdürülmüşdür[41]. Naxçıvan sancağındakı timarlara verilən obyektlərin gəlirinin çox aşağı səviyyədə olması və eyni zamanda bir timar üçün bir obyektin verilməsi ilə əlaqədar, timarların gəliri "qılınc" həddində, yəni minimum dərəcədə olmuş və bundan dolayı bir obyektin gəliri dirlik (timar) kimi yalnız bir şəxsə verilmişdir.

İllik gəlirinin həcmi 2.222.895 ağça olan timarlar 534 kənd, 60 məzrə`ə, 8 qışlaq və 5 məhəlləni əhatə edirdilər.

Dirliklərin gəlirinin qaynağını nələr təşkil etdiyi haqqında icmal dəftərdə məlumat məhdud olsa da, İrəvan əyalətinin və Naxçıvan sancağının eyni dövrdə tərtib edilmiş müfəssəl dəftərləri bu məsələyə aydınlıq gətirirlər. Müfəssəl dəftərlərə əsasən söyləyə bilərik ki, bu dirliklərin gəlirinin əsasını kənd təsərrüfatının ayrı-ayrı sahələrindən əldə edilən gəlirlər təşkil etmişdir. Sultan xasslarının gəlirinə isə göstərilən gəlirlərdən əlavə bütün əyalət və onun şəhərlərindəki istehsal obyektləri ilə bərabər bazar və gömrük rüsumları, rahdarlıq bacları da daxil edilmişdir. Misal üçün, İrəvan şəhər gömrüyünün, şamxanasının, dəbbaqxanasının, qəssabxanasının, zərbxanasının müqatiələri, İrəvan əyalətinin sabunxana, mizan müqatiələri, Göyçə gölün müqatiəsi, Məzrə`ə, Göyçə nahiyələrinin və Dərələyəz nahiyəsinin Şahyurdu məzrə`əsinin rahdarlıq bacı, Qarabağ nahiyəsinin üç duz mədəninin iltizamı sultan xasslarına aid edilmiş və bunlardan əldə edilən 2.612.000 ağça illik gəlir sultan xasslarının ümumi gəlirinin 29%-nə, bütün əyalət gəlirinin isə 21,3%-nə bərabər idi.

Dirliklərin strukturu və xüsusilə zeamət ilə timarların gəliri XVIII əsrin 20-30-cu illərində İrəvan əyalətində timar sisteminin normal fəaliyyət göstərməsinə şübhə ilə baxmağa əsas verir. Naxçıvan sancağında 32 timarın illik gəlirinin 102.200 ağça həcmində olması, İrəvan əyaləti və şəhərindəki gəlir obyektlərinin müqatiəsinin isə Naxçıvan sancağını çıxmaqla əyalətdəki 471 timarın və 15 zeamətin illik gəlirindən (2.120.695. ağça) xeyli çox olması (2.612.000 ağça), İrəvan əyalətindəki dirliklərin strukturunda xassların xeyrinə ciddi dəyişikliklərin baş verməsi timar sisteminin nə dərəcədə işlək olduğunu açıq şəkildə göstərməkdədir. Əkinçilik və heyvandarlıqla məşğul olduğu üçün yaylaq-qışlaq həyatı keçirən İrəvan əyalətinin türk-müsəlman əhalisinin bir qisminin araşdırdığımız icmal dəftərdə mənsub olduğu camaat, əşirət və tayfa haqqında məlumatlara da rast gəlmək mümkündür[42]. Dəftərdə adı çəkilən 30 camaat və

---

[41] Gəliri bölüşdürülmüş timarlar Dərəçiçək (8), Abaran (6), Karni, Vedi (4) və Karbi nahiyələrində (3) qeydə alınmışdır.

[42] İcmal dəftərin bu məlumatlarını araşdırarkən, eyni topluluğun gah camaat, gah da ki əşirət kimi qeydə alındığı ilə qarşılaşırıqsa da, görünür, bu terminlərin həmin camaat və əşirətlər haqqında məlumat verən əhali arasında qəbul olunmuş eyni mənalı terminlər kimi işlənməsinə görə, dəftərin tərtibçiləri də yerli əhalidən aldıqları məlumatı dəyişdirmədən dəftərə salmışdılar.

əşirətin 72 tayfası ayrı-ayrı yaşayış məskənlərinin sakinləri kimi Karbi (18), Xınzirək (14), Aralıq (10), Maku (8), İğdır (5), Şərur (3), Karni (2), Qırxbulaq (2), Vedi (1), Sisyan (1), Sürməli (1) nahiyələrində və Şürəkəl livası ərazisində qeydə alınmışdılar. Bu 30 camaat və əşirətdən on yeddisi bir topluluqdan, yerdə qalanları isə bir neçə tayfadan ibarət olmuşdular.

Bir topluluqdan ibarət camaat və əşirətlərdən Zəngənə, Qəmərli (Xınzirək nahiyəsi), Türkmanlı, Yuva, Mesinli, Alabatanlı, Sər (Karbi nahiyəsi), Hacılı, (Vedi nahiyəsi), İrəmli, Hacumlu (Şürəkəl livası), Pirili (Sürməli nahiyəsi), Kürdlər, Qarahacılı (İğdır nahiyəsi), Şamdangələn Quzuçu, Mürsəlli (Aralıq nahiyəsi), və Kəngərlilərin (Sisyan nahiyəsi) icmal dəftərdə adları çəkilir.

Bir neçə tayfadan ibarət olan camaat və əşirətlər arasında Dümbüli (17)[43], Quzugüdənli (7), Reyhanlı (5), Şaqiabad (5), Muğanlı (3), Bayat (3), Şeyikli (3), Sinli (2), Nəcli (2), Kürdvəli (2), Qaraçalar (2), Əylənli (2), Daşanlıları (2) qeyd etmək olar. Bunlardan Dümbülilər Maku (8), Xınzirək (7) və Şərur (2) nahiyələrində, Quzugüdənlilər Karbi (4) və Aralıq (3) nahiyələrində, Reyhanlılar Xınzirək (3), İğdır (1) və Aralıq (1) nahiyələrində, Şaqiabadlılar Karni (3) və Xınzirək (2) nahiyələrində, Muğanlılar Şürəkəl livasında (3), Bayatlılar Karbi (3) və Şərur (1) nahiyələrində, Şeyiklilər Aralıq nahiyəsində (3), Sinlilər Karbi (1) və Xınzirək (1) nahiyələrində, Nəclilər Qırxbulaq nahiyəsində (2), hərəsi iki tayfa olan Kürdvəlilər, Qaraçalarlılar və Əylənlilər Karbi nahiyəsində, Daşanlılar isə Aralıq nahiyəsində (1) və Şürəkəl livasında (1) yaşamışdılar. Lakin icmal dəftərdə əksər yaşayış məntəqələrinin əhalisinin mənsub olduğu camaat və əşirət haqqında məlumat verilməsə də, adı dəftərə düşmüş yer adlarından, misal üçün, Bayındırlı (s.135), Biçənək (s.162), Bəydili (s.5), Bozçalı (s.80), Qaraqoyunlu (s.20, 77), Qarxın (s.54), Qıpçaq (s.122), Əfşar (s.10,87,142), Oğuzdaş (s.4), Təkə (s.46), Təkəciq (s.105), Tərəkəməlilər (s.74), Cəlayirli (s.20) və s. – onların hansı boydan olmasını çox asanlıqla müəyyən etmək mümkündür.

Toponimika ilə məşğul olan alimlərin müqayisəli tədqiqat aparmalarına imkan yaratmaq xətrinə, qısa şəkildə tanıtdığımız 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"nin mətnindən sonra XVI əsr İrəvan əyalətinin yer adlarının siyahısını da əlavə etməyi lazım bildik.

Nəhayət, nəşr etdiyimiz bu icmal dəftərin kserosurətini bizə göndərmiş dostumuz professor Refet Yinanca və dəftərin osmanlıca tərtib etdiyimiz mətnini oxuyub qeydləri ilə köməklik göstərmiş professor Bəhaəddin Yediyıldıza öz dərin təşəkkürümüzü bildiririk.

[43] İcmal dəftərdə bu topluluğun adı "Dümbüli" ilə bərabər "Dünbüli" şəklində yazılmışdır. Hər iki adın eyni topluluğa aid olduğunu nəzərə alaraq, mətndə onların orfoqrafiyasında dəyişiklik etmədik.

Kitabın nəşr olunmasında hər cür köməyi göstərmiş Azərbaycan EA Əlyazmalar İnstitutunun şöbə müdiri, filologiya elmləri namizədi Zəminə xanım Hacıyevaya minnətdarlığımızı bildirir və yaradıcılıq uğurları diləyirik.

*Bakı şəhəri, 21 sentyabr 1994-cü il.*

## ÖZET

1724 tarihinde Osmanlı idaresine katılan Revan eyaletinde dört yıl süren tahrir sonucu. 1728 tarihinde 2 defter – Mufassal ve icmal defterler hazırlanmıştı.

Yayınladığımız icmal defter İstanbulda Başbakanlık Osmanlı Arşivindedir (No 895). İlk sayfasında Sultan III Ahmedin (1703-1730) tuğra ve buyuruldu olan 168 sayfalık icmal defter Osmanlı dönemi Revan şehri Kırkbulak, Karbi, Maku, Hınzırek, Karni, Vedi, Dereçiçek, Abaran, Gökçe, Mezre`a, Sürmeli, Iğdır, Aralık, Şerur, Zarzemin nahiyeleri, nahiyeleri belirtilmeyen Şüregel livası ve Nahçıvan livasında (Nahçıvan, Elince, Sair Mevazi, Dereşahbuz, Mülk-i Arslan, Mevazi-yi Hatun, Karabağ, Kışlağat, Dereşam, Azadciran, Şorlut, Derenürgüt, Dereleyez ve Sisyan nahiyeleri) dirliklerin durumu hakkında çok değerli bilgiler vermektedir.

Hass, zeamet ve timar şeklinde temsil olunan miri arazinin dirliklerinden sultan ve beylerbeyi hasları gerek yıllık geliri, gerekse gelir kaynaklarının coğrafyası açısından ilgi çekicidir.

Revan eyaletinin gelirinin (12.283.819 akçe) % 73,3`ü (8.998.339 akçe), 1.798 gelir temin eden objektin (karye, mezre`a, yaylak, kışlak, otlak ve b.) 1.120`i (% 63,3) sultan haslarının (hassha-yi hümayun) idi. İrevan şehir gümrüğü, şemhane, dabbakhane, kasabhane, darbhane muktaaları, İrevan eyaletinin sabunhane, boyahane, mizan muktaaları, Gökçe gölün muktaası, Mezre`a, Gökçe nahiyelerinin ve Dereleyez nahiyesi Şahyurdu mezre`asının rahdarlık bac`ı, Karabağ nahiyesinin üç tuz ocağının iltizamı sultan haslarına ait idi. Bunların temin ettiği 2.612.000 akçelik yıllık gelir sultan haslarının toplam gelirinin % 29`u, eyalet gelirinin ise % 21,3`e beraber idi. Yıllık geliri 727.285 akçe (eyalet gelirinin % 5,9`u) olan beylerbeyi haslarına (hassha-yi mirmiran) Kırkbulak, Karbi, Karni nahiyelerinin 19 köyünün, Elince nahiyesi Haçaparaq köyünün ve Revan eyaletinin bir kaç kışlağının yıllık geliri verilmişti.

Genellikle, Revan eyaletinin yıllık gelirinin % 79,2`i (9.725.624 akçe) sultan ve beylerbeyi haslarının hissesine düşüyordu.

Zeametlere gelince, sayısı 15 olan bu dirliklerden dokuzu Karbi nahiyesinde ve birer zeamet de Kırkbulak, Karni, Karbi, Vedi, Abaran, Dereçiçek nahiyelerinde ve Şüregel livasında olmuştu. Adı geçen nahiye ve Şüregel livasının 28 köyünün, 12 mezre`asının ve 6 kışlağının 335.300 akçelik yıllık geliri (eyalet gelirinin %

2,7`i) zeametler için ayrılmıştı. Bu zeametlerin altısının geliri 20.000 akçe, dört zeametin geliri 21.000-23.000 akçe, üçününkü 23.000-25.000 ve ikisinin geliri 25.000-30.000 akçe olmuştu. Görüldüğü gibi, yayılma coğrafyası sınırlı olan zeametlere ayrılmış yıllık gelir zeametler için öngörülmüş yıllık gelirin minimumunda idi.

Gelir objektlerinin sayı ve eyaletin yıllık gelirinden ayrılan hissenin hacmi açısından timarlar sultan haslarından sonra, ikinci yerde idiler. "Revan eyaleti icmal defteri"ne göre Nahçıvan livasında olan 32 timar dahil, Şüregel livasında 122, Karbi nahiyesinde 104, Karni ve Vedi nahiyelerinde 84, Kırkbulak nahiyesinde 78, Abaran nahiyesinde 52 ve Dereçiçek nahiyesinde 31 timar olmak üzere Revan eyaletinde toplam 503 timar olmuştu. Bu timarlardan yirmi birisinin geliri bir kaç kişi arasında paylaştırılmıştı. Nahçıvan livasında verilen objektlerin gelirinin çok düşük olması, ayni zamanda bir timara bir objektin verilmesi ile ilgili olarak, timarların geliri "kılıç" ile sınırlanmış ve dirlik sahiplerine "terakki" verilmemişti. Yıllık gelirinin hacmi 2.222.895 akçe olan timarlar 534 köyü, 60 mezre`ayı, 8 kışlak ve 5 mahalleyi içine alıyorlardı.

Ziraat ve heyvancılıkla uğraştığı için yaylak-kışlak hayatı süren İrevan eyaletinin türk-müslüman nüfusunun bir kısmının yayınladığımız bu defterde mensup olduğu cemaat, aşiret ve taife hakkında da bilgiler vardır.

Defterde adı geçen 30 cemaat ve aşiretin 72 taifesi Karbi (18), Hınzırek (14), Aralık (10), Maku (8), İğdır (5), Şerur (3), Karni (2). Kırkbulak (2), Vedi (1), Sisyan (1) nahiyelerinde ve Şüregel livasında (6) idiler. Bu 30 cemaat ve aşiretten on yedisi bir topluluktan, geri kalanları ise bir kaç taifeden oluşuyordu.

Bir topluluktan oluşan cemaat ve aşiretlerden Zengene, Kamerli (Hınzırek nahiyesi), Türkmanlı, Yuva, Mesinli, Albatanlı, Ser (Karbi nahiyesi), İremli, Haçunlu (Şüregel livası), Kürdler, Arabkirli, Şahablı, Karahacılı (İğdır nahiyesi), Şamdangelen Kuzucu, Mürselli (Aralık nahiyesi), Hacılı (Vedi nahiyesi), Pirili (Sürmeli nahiyesi) ve Kengerlilerin (Sisyan nahiyesi) icmal defterde adı geçer.

Bir kaç taifeden oluşan cemaat ve aşiretler arasında Dünbüli/Dümbüli (17), Kuzugüdenli (7), Reyhanlı (5), Şakiabad (5), Muğanlı (3), Bayat (3), Şeyikli (3), Sinli (2), Necli (2), Kürdveli (2), Karacalar (2), Eylenli (2) ve Daşanlıları (2) gösterebiliriz. Bunlardan Dünbüliler/Dümbüliler Maku (8), Hınzırek (7) ve Şerur (2) nahiyelerinde, Kuzugüdenliler Karbi (4) ve Aralık (3) nahiyelerinde, Reyhanlılar Hınzırek (3), Iğdır (1) ve Aralık (1) nahiyelerinde, Şakiabadlılar Karni (3) ve Hınzırek (2) nahiyelerinde, Muğanlılar Şüregel livasında (3), Bayatlılar Karbi (3) ve Şerur (1) nahiyelerinde, Şeyikliler Aralık nahiyesinde (3), Sinliler Karbi (1) ve Hınzırek (1) nahiyelerinde, Necliler Kırkbulak nahiyesinde (2), ikişer taifesi olan Kürdveliler, Karaçalarlılar ve Eylenliler Karbi nahiyesinde, Daşanlılar ise Aralık nahiyesinde (1) ve Şüregel livasında (1) oturuyorlardı. Fakat, icmal

defterde yaşam yerlerinin çokusunun nüfusunun mensup olduğu cemaat ve aşiret hakkında bilgi verilmemesine rağmen, adı defterde kaydolmuş yer adlarından - Avşar (s. 10, 87, 142), Bayındırlı (s. 135), Biçenek (s. 162), Beydili (s. 5), Bozçalu (s. 80), Celairli (s. 20), Karakoyunlu (s. 20, 77), Karkın (s. 54), Kıpçak (s. 122), Oğuztaş (s. 4), Teke (s. 46), Tekecik (s. 105), Terekemeler (s. 74) ve b. - onların hangi boydan olduklarını belirlemek mümkündür.

Yer adları ile uğraşan bilim adamlarına yardımcı olmak amacıyla, yayınladığımız icmal defterinin metninden sonra, h. 990/1590 tarihli "Defter-i mufassal-i eyalet-i Revan"dan çıkardığımız yer adlarının listesinin eklenmesini de gerekli bulduk.

Kısa özeti bitirirken, bu kitabın yayınlanmasında her türlü yardım göstermiş sayın Zemine hanım Hacı`yevaya, icmal defterin fotokopisini bize göndermiş sayın Prof. Dr. Refet Yınanç`a ve tertip ettiğimiz osmanlıca metni okuyup, değerli tavsiyeler vermiş Prof.Dr. Behaettin Yediyıldız`a içtenlikle teşekkür ederiz.

## /TUĞRA/: DAİM MÜZƏFFƏR OLAN ƏHMƏD ŞAH MƏHMƏD XAN OĞLU

*s. 1.*

**Doğrudur.**

Tərtib olunmuş bu yeni dəftərin görüləcək işlərdə qanun kimi qəbul edilməsi, daimi olaraq dəftərxananın yeni dəftərlər bölümündə saxlanılması və lazım olduqca istifadə edilməsi buyuruldu. 24 ramazan (1) 140 (12 aprel 1728-ci il).

*s. 2.*

Ya fəttah!
İrəvan əyalətinin icmalı.

## SULTAN XASSLARI

İRƏVANIN MÜQATİƏLƏRİ:

İrəvan gömrüyünün müqatiəsi.
Gəlir: 1.320.000 ağça
İrəvan əyalətinin sabunxana müqatiəsi.
Gəlir: 84.000 ağça
İrəvan əyalətinin boyaxana müqatiəsi.
Gəlir: 84.000 ağça
İrəvan şəhərinin şamxana müqatiəsi.
Gəlir: 36.000 ağça
İrəvan şəhərinin dabbağxana müqatiəsi.
Gəlir: 36.000 ağça
İrəvan şəhərinin və Dəmirbulağın qəssabxana müqatiəsi. Gəlir: 60.000 ağça
Zərbxana müqatiəsi. Gəlir: 40.000 ağça
Pençik (?) müqatiəsi. Gəlir: 50.000 ağça
İrəvan əyalətinin mizan müqatiəsi.
Gəlir: 420.000 ağça.

**Yekun: 2.130.000 ağça.**

*s. 3.*

### QIRXBULAQ nahiyəsi

Yeqavert kəndi. Gəlir:100.000 ağça
Kanaker kəndi. Gəlir: 50.000 ağça
Ərinc kəndi və Məqhud məzrə`əsi. Gəlir: 15.100 ağça
Çölməkçi kəndi. Gəlir: 5.040 ağça
Yelqovan kəndi. Gəlir: 9.000 ağça
Zak kəndi. Gəlir: 10.000 ağça
Kəmris kəndi. Gəlir: 8.000 ağça
Çatqırani-zimmi kəndi. Gəlir: 5.000 ağça
Ərzni kəndi. Gəlir: 6.000 ağça
Ərzkan kəndi. Gəlir: 25.000 ağça
Mehmandari-Şollu kəndi. Gəlir: 3.500 ağça
Dəmirçiliye-Şollu kəndi. Gəlir: 13.000 ağça

Xaçaparaq kəndi. Gəlir: 30.000 ağça
Hacı İlyas kəndi. Gəlir: 3.500 ağça
Donuzpayan kəndi. Gəlir: 12.000 ağça
Yuxarı Göykənd. Gəlir: 12.000 ağça
Aşağı Göykənd. Gəlir: 10.000 ağça
Noregiğ kəndi. Gəlir: 8.000 ağça
Beçni kəndi. Gəlir: 18.000 ağça
Şeyx Kəlul kəndi. Gəlir: 4.000 ağça
Köhnə Dəlilər kəndi. Gəlir 4.000 ağça
Çərəçür kəndinin yaxınlığında yerləşən Böyük Ağviran kəndi. Gəlir: 4.000 ağça
Dəlilər kəndinin yaxınlığında olan İşxavənk məzrə`əsi. Gəlir: 4.000 ağça
Dəlilər kəndinin yaxınlığında yerləşən Baba Çərçür kəndi. Kəndin başqa adı Məhəmmədkənddir. Gəlir: 7.200 ağça
Ağviran kəndinin yaxınlığında yerləşən Qızılviran kəndi. Gəlir: 2.700 ağça
Qarğılıq kəndi. Gəlir: 3.000 ağça
Yeni qışlaq kəndi. Kəndin başqa adı Əxi təpəsidir. Gəlir: 3.000 ağça
Keçili və Kənzək kəndləri. Gəlir: 2.000 ağça
İmadi-açur (?) qışlağı. Gəlir: 3.000 ağça
Doğrudur.

**Yekun 417.840 ağça.**

## KARBİ nahiyəsi

Karbi kəndi. Gəlir: 52.000 ağça
Batrınc kəndi. Gəlir: 15.000 ağça
Sərkovit kəndi. Gəlir: 9.000 ağça

*s. 4.*

Ələkli kəndi. Gəlir: 9.500 ağça
Siyaqut kəndi. Gəlir: 12.000 ağça
Kosacan kəndi. Gəlir: 12.000 ağça
Aşağı Parçı kəndi. Kəndin başqa adı Vayxırdır. Gəlir: 12.600 ağça
Zülfüqar qışlağı. Əhalisi Bayat əşirətindəndir. Gəlir: 2.880 ağça
Oğuzdaş kəndi. Gəlir: 4.000 ağça
Aşağı Qarxın kəndi. Gəlir: 4.500 ağça
Qalacıq kəndi. Gəlir 14.500 ağça
Yuxarı və Aşağı Aralıq kəndləri. Gəlir: 9.500 ağça

Qazançılı kəndi. Kəndin başqa adı Yengicədir. Gəlir: 3.000 ağça
Yuxarı Əlişar kəndi. Gəlir: 3.000 ağça
Aşağı Noraşen kəndi. Gəlir: 10.060 ağça
Qarabürc kəndi. Gəlir: 15.000 ağça
Aşağı Şəhriyar kəndi. Gəlir: 7.800 ağça
Yalqızağac kəndi. Gəlir: 7.700 ağça
Məlikkənd. Kəndin başqa adı Daşarxdır. Gəlir: 11.700 ağça
Vəzirabad məzrə`əsinin yaxınlığında yerləşən Pirverdi qışlağı. Gəlir: 3.000 ağça
Parçı-Vayxır kəndinin yaxınlığında yerləşən Sənəyim (?) kəndi. Gəlir: 3.100 ağça
Vayxır kəndinin yaxınlığında yerləşən Aşağı Parçı və Dövlətabad kəndləri. Gəlir: 3.400 ağça
Göyçü kəndinin yaxınlığında yerləşən Elvar kəndi. Gəlir: 3.600 ağça
Asaçe (?) kəndinin yaxınlığında yerləşən Abi-siyah kəndi. Gəlir: 3.200 ağça
Vayxır kəndinin yaxınlığında yerləşən Bəydili kəndi. Gəlir: 3.300 ağça
Xəlifkənd yaxınlığında yerləşən Acıkəhriz kəndi. Gəlir: 3.200 ağça
Yuxarı Parçı kəndinin yaxınlığında yerləşən Tanağa kəndi. Gəlir: 3.600 ağça
Xəlifkənd yaxınlığında yerləşən Bülbülabad kəndi. Gəlir: 3.200 ağça
Xəlifkənd yaxınlığında yerləşən Danaqalası kəndi. Gəlir: 3.500 ağça
Vayxır-Parçı kəndinin yaxınlığında yerləşən Uzunabad kəndi. Gəlir: 3.400 ağça
Quşçu kəndinin yaxınlığında yerləşən Gəray qışlağı. Gəlir: 3.000 ağça
Quşçu kəndinin yaxınlığında yerləşən Sudələn[44] qışlağı. Gəlir: 3.200 ağça
Quşçu kəndinin yaxınlığında yerləşən Şah Hüseyn qışlağı[45]. Gəlir: 3.000 ağça
Quşçu kəndinin yaxınlığında yerləşən Çinar qışlağı. Gəlir: 3.000 ağça
Qazıxan kəndinin yaxınlığında yerləşən Dərvişlər qışlağı. Gəlir: 6.640 ağça
Apaça kəndi. Gəlir: 9.200 ağça
Xalac kəndi. Gəlir: 14.000 ağça
Qarabürc kəndinin Behzad bulağı məzrə`əsi. Gəlir: 2.000 ağça
Maxta kəndinin yaxınlığında yerləşən Behzad budağı kəndi. Gəlir: 3.000 ağça
Qalacıq kəndinin yaxınlığında olan Fərhad arxı məzrə`əsi. Gəlir: 3.000 ağça

[44] 1728-ci il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (s.404) bu qışlağın adı "Sınıq ələk" kimi yazılmışdır. Bu da qışlağın başqa adıdır, ya da ki, katibin səhvidir.
[45] "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (s.403) bu qışlağın adı "Hüseyn qışlağı" kimi yazılmışdır.

Kosacan kəndinin yaxınlığında olan Bayramxan məzrə`əsi. Gəlir: 500 ağça
Şəhriyar kəndinin yaxınlığında olan Sinli (?) və Səid məzrə`ələri. Gəlir: 500 ağça
Xəlicə kəndi. Gəlir: 500 ağça
Xanabad qışlağı. Gəlir: 600 ağça
Aseçeabad (?) kəndi. Gəlir: 600 ağça

*s. 5.*

Abdullabad kəndi. Gəlir: 500 ağça
Diyadin kəndi. Gəlir: 500 ağça
Bəydili kəndi. Kəndin başqa adı Görəçiabaddır. Gəlir: 500 ağça
Daşarx kəndi. Kəndin başqa adı Məlikkəndabaddır. Gəlir: 400 ağça

**Yekun: 660.856 ağça.**

## MAKU nahiyəsi

Maku qalası. Gəlir: 42.000 ağça
Böyük Xas kəndi. Gəlir: 7.400 ağça
Kiçik Xas kəndi. Gəlir: 4.000 ağça
Bürkan kəndi. Əhalisi Dümbüli camaatındandır. Gəlir: 3.000 ağça
Dik kəndi. Əhalisi Dümbüli camaatındandır. Gəlir: 3.972 ağça
Bərdinli kəndi. Gəlir: 3.320 ağça
Qarahəsən kəndi. Əhalisi Dümbüli camaatındandır. Gəlir: 2.148 ağça
Vərğa kəndi. Əhalisi Dümbüli əşirətindəndir. Gəlir: 2.000 ağça
Qarakilsə kəndi. Gəlir: 6.000 ağça
Meydan kəndi. Əhalisi Dümbüli əşirətindəndir. Gəlir: 2.200 ağça
Qarakilsə kəndi. Əhalisi Dümbüli əşirətindəndir. Gəlir: 2.150 ağça
Məscidiyan kəndi. Gəlir: 2.000 ağça
Zəncan kəndi. Əhalisi Dümbüli əşirətindəndir. Gəlir: 2.104 ağça.
Yumrudaş kəndi. Gəlir: 500 ağça
Rüstəm kəndi. Gəlir: 800 ağça
Batmış kəndi. Gəlir: 900 ağça
İbrahim kəndi. Gəlir: 1.300 ağça
Abbas kəndi. Gəlir: 800 ağça
Üçdaş kəndi. Gəlir: 700 ağça
Yusif kəndi. Gəlir: 500 ağça

Məhəmmədağa kəndi. Gəlir: 800 ağça
Niyaz kəndi. Gəlir: 900 ağça
Dəyirli kəndi. Gəlir: 1.200 ağça
Əliqulu kəndi. Gəlir: 800 ağça
Çıqçı kəndi. Gəlir: 700 ağça
Şimal kəndi. Gəlir: 100 ağça
Uzunbüyü kəndi. Gəlir: 700 ağça
Çersal kəndi. Gəlir: 800 ağça
Qarasürü kəndi. Gəlir: 850 ağça
Babalı kəndi. Gəlir: 800 ağça

*s. 6.*

Qalağan kəndi. Gəlir: 1.500 ağça
Ağbulaq kəndi. Gəlir: 1.200 ağça
Hato kəndi. Gəlir: 580 ağça
Sevdik kəndi. Gəlir: 1.200 ağça
Şahinağa qışlağı və məzrə`əsi. Gəlir: 1.500 ağça
Acıgöl kəndi. Gəlir: 500 ağça
Digər Rüstəm kəndi. Gəlir: 650 ağça
Başbulaq kəndi. Gəlir: 1.500 ağça
Çiyinli kəndi. Gəlir: 900 ağça
Babur kəndi. Gəlir: 800 ağça.
Yolagəldi kəndi. Gəlir: 1.200 ağça
Qarabağ kəndi. Gəlir: 1.300 ağça
Hüseynbasan kəndi. Gəlir: 1.100 ağça
Tatarlı kəndi. Gəlir: 2.500 ağça
İnçə kəndi. Gəlir: 5.500 ağça
Əndizar kəndi. Gəlir: 2.500 ağça
Miri kəndi. Gəlir: 2.800 ağça
Qaracaviran kəndi. Gəlir: 2.600 ağça
Ağyaylaq kəndi. Gəlir: 4.220 ağça
Qızıldağlı kəndi. Gəlir: 2.000 ağça
Qaraqolginə (?) kəndi. Gəlir: 800 ağça
Keşişarxı kəndi. Gəlir: 2.000 ağça
Qarasur, Xəlac və Şeydad Ağdam kəndləri. Gəlir: 7.000 ağça
Barduq kəndi. Gəlir: 2.000 ağça
Dikmə kəndi. Gəlir: 4.500 ağça

Qalacıq kəndi. Gəlir: 6.800 ağça
Toxluaxılı kəndi. Gəlir: 2.000 ağça
Kəsməztəpə kəndi. Gəlir: 4.760 ağça
Keçid kəndi. Gəlir: 2.188 ağça
Qaraqışlaq kəndi. Gəlir: 3.059 ağça
Başdəm kəndi. Gəlir: 2.158 ağça
Bükülhəsən kəndi və onun Abdulla məhəlləsi. Gəlir: 4.030 ağça
Xök kəndi. Gəlir: 2.500 ağça
Əndəlib kəndi. Gəlir: 3.380 ağça
Sut kəndi. Gəlir: 3.300 ağça
Saqat kəndi. Gəlir: 5.560 ağça
Hacıməkə kəndi. Gəlir: 5.200 ağça
Zərdalı kəndi. Gəlir: 2.500 ağça
Muradlı kəndi. Gəlir: 6.480 ağça
Böyük Quşçu kəndi. Gəlir: 4.000 ağça
Ərəbli kəndi. Gəlir: 3.590 ağça
Bornak kəndi. Gəlir: 5.500 ağça
Qarğılı kəndi. Gəlir: 2.300 ağça
Qutludövr kəndi. Gəlir: 9.700 ağça
Kosalı kəndi. Gəlir: 3.600 ağça

*s. 7.*

Muradverdi kəndi. Əhalisi Dümbüli camaatındandır. Gəlir: 2.300 ağça
Xatunkərdi kəndi. Gəlir: 2.300 ağça
Dönənik kəndi. Gəlir: 2.200 ağça
Öküzbatır kəndi. Gəlir: 1.700 ağça
Səfərqulu kəndi. Gəlir: 3.000 ağça
Söyüdlü kəndi. Gəlir: 2.000 ağça
Güllücə kəndi. Gəlir: 2.100 ağça
Hacı Ustad kəndi. Gəlir: 1.966 ağça
Dir kəndi. Gəlir: 2.100 ağça
Bağçacıq kəndi. Gəlir: 7.500 ağça
Nadirgahbulaq kəndi. Gəlir: 5.500 ağça
Musadağdakı Qızılsürü və Qaraxaç yaylaqları. Gəlir: 3.000 ağça
Balaban, Çaker və Ağca qışlaqları. Gəlir: 2.000 ağça
Varissiz ölənlərin mirasının satışından xəzinənin gəliri: 5.000 ağça

**Yekun: 283.165 ağça**

**(Dərkənar):**

İrəvanın qoruyucusu, qanuna hörmət bəsləyən vəzir əl-Hac Mustafa paşa – Allah-taala onun böyüklüyünü daimi etsin! – xoşbəxtlik gətirən dərgahıma məktub göndərib, fəth olunmuş İrəvan əyalətinin dəftəri tutulduğu zaman bu işlə məşğul olan şəxsin rəhmətə getməsinə və İrəvan əyalətinə tabe olan Maku sancağının idarəsi kürdlərin əlində olmasına görə, dəftərin tərtibi işi Maku nahiyəsinin naibinin rəhbərliyi ilə davam etdirildiyini və bu sancağın kürd bəylərinə ocaqlıq kimi verildiyini bildirmişdir. Hal-hazırda bu sancağın ocaqlığı ləğv olunmuş və İrəvan əyalətinin müqatiələri siyahısına daxil edilmiş, lakin sancağın kənd və məzrə`ələri təftiş edilərkən Beranke, Qaracayolqolu, İraniqara, Bayındır, Bican, Göyseyid, Ocaqqulu, Şahsuvar, Novruz və Yağmurlu adlı daha on abad kəndin olduğu müəyyənləşdirildiyi üçün, (əl-Hac Mustafa paşa) Maku sancağının adları çəkilən kəndlərinin sultan xasslarına daxil edilməsi ilə bağlı dövlət dəftərxanasında saxlanılan Maku sancağı dəftərinə salınması barəsində rica etmişdir. Şan-şöhrət sahiblərinin iftixarı olan dəftər əmini Abdulla – onun şöhrəti daimi olsun! – icmal və müfəssəl dəftərlər nəzərdən keçirildikdə, Maku sancağında və nahiyəsində Beranke, Qaracayolqolu, İraniqara, Bayındır, Bican, Göyseyid, Ocaqqulu, Şahsuvar, Novruz və Yağmurlu kəndlərinin adları kənd və məzrə`ələr siyahısında olmamışdır deyə, bildirdikdə bu aciz bəndəyə adları çəkilən on kəndin dəftər tərtib olunduğu zaman dəftərə düşməmiş kəndlər kimi qeyd olunmasına və Maku dəftərini gətirib bu kəndlərin adlarının sultan xassları kimi öz qələmimlə oraya yazılmasına dair verilmiş yüksək əmrə əsasən qeyd olunan on kəndin adı dəftərə salındı.

**3 səfər 1141 (8 sentyabr 1728)-ci il.**
**Aciz bəndə Əli, vəzirin katibi.**

**Beranke kəndi.**
**Qaracayolqulu kəndi.**
**İraniqara kəndi.**
**Bayındır kəndi.**
**Bican kəndi.**
**Göyseyid kəndi.**
**Ocaqqulu kəndi.**
**Şahsuvar kəndi.**
**Novruz kəndi.**
**Yağmurlu kəndi.**

Qanuna hörmət bəsləyən, ehtiram qazanmış sərkərdə dünyanın nizamı, Ərzrum valisi ikən İrəvan sərəskəri təyin olunmuş vəzir Əli paşa-Allah-taala onun böyüklüyünü daimi etsin! –xoşbəxtlik gətirən dərgahıma məktub göndərib, İrəvan əyalətinin Maku sancağının mühafizəsində olan əmirlərin və ehtiram qazanmışların seçkini Yunusun – onun qüdrəti daimi olsun! – atası adı çəkilən livanı pis aqibətli əcəmlərdən (burada: Səfəvilərdən – Z.B., H.M.) xilas etdiyinə görə, buranı yurdluq və ocaqlıq kimi idarə etməsi üçün sərəskər tərəfindən ona sənədlər verildiyini bildirmişdir. Lakin otuz səkkizinci (1138/1725-1726) ildə buralar Əbdülfəttah bəyə Bəyazid sancağının mütəsərrifi olan atası Mahmud paşanın tabeliyində olması şərti ilə yurdluq və ocaqlıq kimi verilmişdir. Qırx birinci (1141/1728-1729) ildə Maku qalası və səksən altı kənd üçün bərat verildikdən sonra İrəvan əyalətinin dəftəri tutulduğu zaman bu işlə məşğul olan şəxsin rəhmətə getməsinə və İrəvan əyalətinə tabe olan Maku sancağının idarəsi kürdlərin əlində olmasına görə, dəftərin tərtibi işi Maku nahiyəsinin naibinin rəhbərliyi ilə davam etdirilmiş və bu liva kürd bəylərinə ocaqlıq kimi verilmişdir. Buna baxmayaraq adı çəkilən livanın ocaqlığı ləğv olunmuş və İrəvan əyalətinin müqatiələrinə daxil edilmişdir. Lakin livanın kənd və məzrə`ələri təftiş edilərkən Beranke, Qaracayolqulu, İraniqara, Bayındır, Bican, Göyseyid[46], Ocaqqulu, Şahsuvar[47], Novruz[48], və Yağmurlu adlı daha abad kəndin olduğu müəyyənləşdirilmiş və Maku sancağının adları çəkilən kəndlərinin sultan xassları kimi dövlət dəftərxanasında saxlanılan Maku sancağı dəftərinə salınması buyurulmuşdur. Min yüz qırx birinci (1728/1729) ildə adı çəkilən liva sultan xasslarına daxil edilməsinə baxmayaraq, xəzinəyə on beş kisə ağça təhvil olunması şərti ilə başqa birisinə verilərək, xainlik edilmişdir. Təbriz hadisələri zamanı qarət olunduğu üçün kəndlər və məzrə`ələr tamamilə boşalmış və xarabaya döndüyü bir vaxtda adı çəkilən mirliva Yunus Maku qalasında özünü çalışqan, faydalı, cürətli, cəsur, şücaətli olduğunu göstərmiş, buna görə də ona sultan tərəfindən hökmdara yaraşan inayət göstərilmişdir. Sultanın xidmətində qalaraq gələcəkdə də din və dövlətə sədaqətini nümayiş etdirməsi şərti ilə Maku nahiyəsi tabeliyindəki gəliri iki yüz səksən üç min yüz altmış beş ağça olan Maku qalası və səksən altı kəndi sultan xassları siyahısından çıxarılıb, xəzinəyə ildə beş kisə ağça verməklə Maku sancağının mütəsərrifinə yurdluq və ocaqlığa verilməsi üçün edilən rica ilə əlaqədar alınan yüksək fərmana görə, adı çəkilən liva xəzinəyə ildə beş kisə ağça təhvil olunmaq şərti ilə adı yuxarıda qeyd olunan mirlivaya yurdluq və ocaqlıq kimi verilmişdir. Əmirlərin və böyüklərin fəxri olan baş

[46] Mətndə "Qulseyid" şəklində yazılmışdır.
[47] Mətndə "Sisule" şəklində yazılmışdır.
[48] Mətndə "Burdur" şəklində yazılmışdır.

dəftərdar Əli – onun alicənablığı daimi olsun! – bəratın verilməsi ilə əlaqədar dəftərdə düzəlişlər edilməsi üçün icmal dəftərini gətirdib, Maku nahiyəsinə tabe olan və gəliri iki yüz səksən üç min yüz altmış beş ağça olan Maku qalası və səksən altı kənd sultan xasslarından çıxarılaraq xəzinəyə ildə beş kisə ağça vermək şərti ilə yurdluq və ocaqlıq kimi Maku sancağının mütəsərrifinin xassı olması barəsində bəratın verilməsinə dair dəftərdə düzəlişlər aparasan deyə, edilən müraciətə əsasən dəftərdə bu aciz bəndə tərəfindən düzəlişlər edildi.

**22 zilqəddə 1143-cü (30 may 1731-ci) il.**
**Aciz bəndə Əhməd, vəzirin katibi.**

## XINZIRƏK nahiyəsi

Xınzırək kəndi. Gəlir: 16.000 ağça
Gərəkkiçik kəndi. Gəlir: 3.800 ağça
İsti kəndi. Gəlir: 4.500 ağça
Korlavənk kəndi və Xanbudaq məhəlləsi. Əhalisi Zəngənə camaatındandır. Gəlir: 5.000 ağça
Ağgölü-Çematiyan (?) kəndi. Gəlir: 3.300 ağça
Güllücə kəndi. Əhalisi Dünbüli camaatındandır. Gəlir: 1.500 ağça
Qaratəpə kəndi. Gəlir: 1.350 ağça
Xatunkaryeri kəndi. Əhalisi Dünbüli camaatının əşirətlərindəndir. Gəlir: 2.000 ağça
Əsaxan kəndi. Əhalisi Dünbüli camaatının əşirətlərindəndir. Gəlir: 1.520 ağça
Molla Xəlil kəndi. Əhalisi Dünbüli əşirətindəndir. Gəlir: 1.200 ağça
Xanımkənd. Gəlir: 1.340 ağça
Dərəbəy kəndi. Əhalisi Dünbüli əşirətindəndir. Gəlir: 1.732 ağça
Naqibğan kəndi. Əhalisi Dünbüli əşirətindəndir. Gəlir: 1.328 ağça
Söyüdlü kəndi. Əhalisi Dünbüli camaatındandır. Gəlir: 2.194 ağça

*s. 8.*

Nəzirvan kəndi. Gəlir: 7.500 ağça
Şəhriman kəndi. Gəlir: 3.000 ağça
Əyikkilsə və Seyidallah kəndləri. Adları dəftərə düşməmişdir. Gəlir: 1.500 ağça
Böyüvi kəndi. Adı dəftərə düşməmişdir. Gəlir: 2.000 ağça
Çilak Bulğunluk kəndi. Adı dəftərə düşməmişdir. Gəlir: 1.000 ağça
Xatunbulağı kəndi. Adı dəftərə düşməmişdir. Gəlir: 2.000 ağça

Daşlıca kəndi. Adı dəftərə düşməmişdir. Gəlir: 1.000 ağça
Quldərviş kəndi. Adı dəftərə düşməmişdir. Gəlir: 2.000 ağça
Xeyirabad kəndi. Adı dəftərə düşməmişdir. Gəlir: 1.000 ağça
Haks kəndi. Gəlir: 8.000 ağça
Üçkilsə kəndi. Gəlir: 211.222 ağça
Üçkilsə kəndinin yaxınlığında yerləşən Axsaxlı kəndi. Gəlir: 3.000 ağça
Üçkilsə kəndinin yaxınlığında yerləşən İrəmli kəndi. Gəlir: 3.000 ağça
İrəmli kəndi. Kəndin başqa adı Üzənlidir. Əhalisi Şaqiabad camaatındandır. Gəlir: 35.000 ağça
Ağırlı kəndi və Ağcaqışlaq məhəlləsi. Əhalisi Şaqiabad camaatındandır. Gəlir: 8.000 ağça
Hacıbəyli kəndi. Gəlir: 8.000 ağça
Qışlaq kəndi. Əhalisi Qəmərli Şaqiabad camaatındandır. Gəlir: 11.000 ağça
Molla Abdi kəndi. Gəlir: 6.000 ağça
Musa Hacılı kəndi. Əhalisi Sinli camaatındandır. Gəlir: 17.200 ağça
Canfəda kəndi. Əhalisi Reyhanlı camaatındandır. Gəlir: 11.500 ağça
Xaçaparalı kəndinin yaxınlığında yerləşən İgidli kəndi. Əhalisi Reyhanlı camaatındandır. Gəlir: 8.000 ağça
Xaçaparalı kəndi. Əhalisi Reyhanlı camaatındandır. Gəlir: 8.000 ağça
Keçili Quzuçulu kəndi. Gəlir: 4.000 ağça
Ağnadərə kəndi. Gəlir: 9.500 ağça
Ağnadərə kəndinin yaxınlığında yerləşən Qaraqubad kəndi. Gəlir: 1.000 ağça
Səmağad kəndi. Gəlir: 8.500 ağça
Əlibəyli kəndi. Gəlir: 20.000 ağça
Başıböyük kəndi. Gəlir: 1.500 ağça
Cəfərabad kəndi. Gəlir: 6.000 ağça
Molla Bayəzid kəndi. Gəlir: 8.000 ağça
Kiçik Talin kəndi. Gəlir: 12.000 ağça
Çaltəpə kəndi. Gəlir: 1.500 ağça
Qonura kəndi. Gəlir: 3.000 ağça
Baratlı kəndi. Gəlir: 3.000 ağça
Muğanlı kəndi. Gəlir: 6.000 ağça
İncə kəndi. Gəlir: 3.000 ağça
Əyriçivan kəndi. Gəlir: 5.000 ağça
Ağcaqala kəndi və Çayırbəyli ilə Ağcaqala kəndlərinin arasında yerləşən Hacı Bayram qışlağı. Gəlir: 26.000 ağça
Məhəmmədəli kəndi. Gəlir: 8.652 ağça

Suvarbənd kəndi. Gəlir: 5.000 ağça
Həlimxan kəndi. Gəlir: 4.000 ağça
Xəlilkənd. Gəlir: 6.500 ağça
Sabunçulu kəndi. Gəlir: 4.500 ağça
Başkənd. Gəlir: 6.000 ağça
Dirəkçi adı ilə də tanınan Uzunqışlaq kəndi. Gəlir: 9.500 ağça

*s. 9.*

Güneykənd. Gəlir: 3.000 ağça
Çərəkli kəndi. Gəlir: 2.250 ağça
Haks kəndinə bağlı olan Bayburd kəndi[49]. Gəlir: 3.000 ağça
Mirmirək kəndi. Gəlir: 3.000 ağça

**Yekun: 608.324 ağça**

## KARNİ nahiyəsi

Karni kəndi. Gəlir: 23.000 ağça
Əhalisi Dagulilərdən olan Haratlı kəndi. Gəlir: 10.000 ağça
Saatlı Sabunçu kəndi. Gəlir: 8.000 ağça
Axtaxan kəndi. Gəlir: 8.000 ağça
Yuxarı Quyuluhasar kəndi. Gəlir: 9.500 ağça
Aşağı Quyuluhasar kəndi. Gəlir: 7.000 ağça
İmanşahlı kəndi. Gəlir: 13.000 ağça
Novruzlu kəndi. Kəndin başqa adı Musahacıdır. Gəlir: 5.000 ağça
Tantaq kəndi. Kəndin başqa adı Ağaceridir. Gəlir: 4.200 ağça
Dəlilər kəndi. Gəlir: 20.000 ağça

Qaraqışlaq kəndi. Kəndin başqa adı Mərənçidir. Əhalisi Qəmərli camaatındandır. Gəlir: 17.000 ağça

Yuva kəndinin yaxınlığında yerləşən Ağcaqışlaq kəndi. Əhalisi Qəmərli camaatındandır. Gəlir: 3.000 ağça

Almalı kəndi. Əhalisi Qəmərli camaatındandır. Gəlir: 3.000 ağça
Dəlilər kəndinin yaxınlığında yerləşən Uğurbəyli kəndi. Gəlir: 6.500 ağça
Dəlilər kəndinin yaxınlığında yerləşən Piri kəndi. Gəlir: 9.000 ağça
Böyük Ayaslı kəndi. Kəndin başqa adı Quşçudur. Gəlir: 28.300 ağça

[49] Bayburd kəndi dəftərdə “kənd” (“qəryə”) kimi qeyd edilsə də, görünür, bura vaxtilə Haks kəndinin bir məhəlləsi olubmuş.

Böyük Ayaslı kəndinin yaxınlığında yerləşən Qulça Əli kəndi. Gəlir: 4.500 ağça

Kiçik Ayaslı kəndi. Gəlir: 13.000 ağça

Ərdəşir kəndinin yaxınlığında yerləşən Buzavand s.r.s.r. (?) kəndi. Kəndin başqa adı Əbdülhacıdır. Gəlir: 11.500 ağça.

Ağcaqışlaq kəndinin yaxınlığında yerləşən Dvin kəndi. Gəlir: 6.000 ağça

Mə`sumlu kəndinin yaxınlığında yerləşən Kərirağdağ (?) kəndi. Gəlir: 3.000 ağça

Qovun Seyfidərə kəndinin yaxınlığında yerləşən Böyük Mə`sumlu kəndi. Gəlir: 10.000 ağça

Yenicə kəndinin yaxınlığında yerləşən Xaçlı kəndi. Gəlir: 3.000 ağça

Yenicə kəndi. Gəlir: 4.000 ağça

Harunberun (?) kəndi. Gəlir: 3.000 ağça

Dumanlı kəndi. Gəlir: 3.500 ağça

Kərəm Məhəmmədəli kəndi. Gəlir: 3.000 ağça

Qasıməli qışlağı. Gəlir: 3.000 ağça

Ketus (?) kəndi. Kəndin başqa adı Gülbudaqdır. Gəlir: 3.000 ağça

Varissiz ölənlərin mirasının satışından xəzinənin gəliri: 3.000 ağça

Yekun: 248.000 ağça.

## VEDİ nahiyəsi

*s. 10.*

Vedi kəndi. Gəlir: 22.000 ağça

Kiçik Vedi kəndi. Gəlir: 10.000 ağça

Zimmi Vedisi kəndi. Gəlir: 12.000 ağça

Kəstənli kəndi. Gəlir: 3.600 ağça

Qarança kəndi. Kəndin başqa adı Şəbiklidir. Gəlir: 4.800 ağça[50]

Qarança məzrə`əsi. Gəlir: 2.400 ağça

Böyük Meralar (?) kəndi. Gəlir: 3.000 ağça

Qarança Şətli kəndi. Gəlir: 10.000 ağça

Haramlı Şətli kəndi. Gəlir: 1.000 ağça

Küsühlü Şətli kəndi. Gəlir: 1.000 ağça

Kiçik Meralar (?) kəndi. Gəlir: 2.000 ağça

Dəvəli kəndi. Gəlir: 25.000 ağça

Qarança kəndinin yaxınlığında olan Nəsibli qışlağı. Gəlir: 4.000 ağça

---

[50] "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (s. 459-460) bu kəndin adı "Qaracıq" kimi yazılmış, gəliri isə 18.000 ağça olaraq qeyd olunmuşdur.

Əfşaryerli kəndi. Gəlir: 6.000 ağça
Qayçı kəndi.[51] Kəndin başqa adı İmamquludur. Gəlir: 4.000 ağça
Piri-qayib qışlağı. Qışlağın başqa adı Qayçıdır. Gəlir: 2.000 ağça
Xaçlı kəndi[52]. Kəndin başqa adı Çiçəklidir. Gəlir: 2.800 ağça
Sarablı kəndi. Gəlir: 2.000 ağça
Sarı Musalı kəndi. Gəlir: 1.500 ağça
Şirazlı kəndi. Gəlir: 8.000 ağça
Daşlıqaya kəndi. Gəlir: 3.000 ağça
Kürəvan kəndi. Gəlir: 3.000 ağça
Yuxarı Çadırğan kəndi[53]. Gəlir: 7.000 ağça
Aşağı Çadırğan kəndi. Gəlir: 3.000 ağça
Reyhanlı kəndi. Gəlir: 2.312 ağça
Çovgəndiz (?) kəndi. Gəlir: 3.000 ağça
Şıqşıq kəndi. Gəlir: 3.000 ağça
Qarabağ kəndinin yaxınlığında yerləşən Cəfərkənd. Gəlir: 3.500 ağça
Qızılviran kəndi[54]. Gəlir: 3.000 ağça
Xanəhməd kəndi[55]. Gəlir: 3.000 ağça
Böyük Qarabağ kəndinin yaxınlığında yerləşən Əngiz kəndi[56]. Gəlir: 3.000 ağça

**Yekun: 166.512 ağça.**

## DƏRƏÇİÇƏK nahiyəsi

Dərəçiçək kəndi. Gəlir: 11.000 ağça
Dərəçiçək kəndi yaxınlığında olan Kərinək məzrə`əsi. Gəlir: 3.000 ağça
Dərəçiçək kəndi yaxınlığında olan Cəlladlı kəndi. Gəlir: 200 ağça

*s. 11.*

---

[51] Bu kəndin adı müfəssəl dəftərdə "Qançı" şəklində yazılmışdır (s. 463-464).
[52] Müfəssəl dəftərdə bu yer adı "Hacılı" kimi yazılmışdır. (s 464). İcmal dəftərdən fərqli olaraq müfəssəl dəftərdə "Çiçəkli" kəndin başqa adı kimi deyil, əksinə Çiçəkli kəndinin əhalisinin Hacılı əşirətindən olduğu qeyd edilmişdir.
[53] Yuxarı və aşağı Çadırğan kəndlərinin adı müfəssəl dəftərdə (s. 466) "Çatıqıran" şəklində yazılmışdır. Bundan əlavə bu kəndlərdən Aşağı Çadırğan /Çatıqıran kəndinin adı müfəssəl dəftərə qeyd olunmamış, Yuxarı Çadırğan/ Çatıqıran kəndi isə sadəcə olaraq "Çatıqıran" şəklində yazılmışdır.
[54] Bu kəndin adı müfəssəl dəftərdə (s.456) "Qızıluran" kimi yazılmışdır. Eyni zamanda müfəssəl dəftərdə bu kənddə heç kimin yaşamadığı da göstərilmişdir.
[55] Müfəssəl dəftərdə (s.473) bu kəndin adı "Canəhməd" şəklində yazılmışdır.
[56] Müfəssəl dəftərdə (s.469) Əngiz kəndində heç kimin yaşamadığı qeyd olunmuşdu.

Şəhriz kəndi. Gəlir: 11.000 ağça
Çubuqlu kəndi. Gəlir: 12.000 ağça
Fərhadkaha kəndi və Varzinək məzrə`əsi. Gəlir: 2.000 ağça
Söyüdlü kəndi. Gəlir: 1.000 ağça
Axtu kəndi. Gəlir: 14.000 ağça
Avazənik (?) kəndi. Gəlir: 3.000 ağça
Alağək kəndi. Gəlir: 3.000 ağça
Solək kəndi. Gəlir: 4.000 ağça
Eşşəkquduran yaxınlığında yerləşən Gümürlü kəndi. Gəlir: 3.000 ağça
Mər`ədərəsi kəndi. Gəlir: 2.500 ağça
Mər`əxarabası kəndi. Gəlir: 2.000 ağça
Gördük kəndi yaxınlığında yerləşən Sərağiğ kəndi. Gəlir: 3.000 ağça
Varissiz ölənlərin mirasının satışından xəzinənin gəliri: 2.000 ağça

**Yekun: 64.100 ağça.**

## ABARAN nahiyəsi

Şişqara kəndi. Adı dəftərə düşməmişdir. Gəlir: 3.000 ağça
Əbülxeyir kəndi yaxınlığında yerləşən Qarayerun (?) kəndi. Gəlir: 3.000 ağça
Karvansara kəndi. Gəlir: 3.000 ağça
Teqit kəndi. Adı dəftərə düşməmişdir. Gəlir: 1.500 ağça
Ələyəz kəndi. Adı dəftərə düşməmişdir. Gəlir: 1.000 ağça
Vərinli məzrə`əsi. Gəlir: 3.000 ağça
Gərükər (?) adı ilə tanınan Kenangird (?) kəndi. Gəlir: 1.500 ağça
Abaranoğlu kəndi. Gəlir: 3.000 ağça
Qoyluqan kəndi yaxınlığında yerləşən Keçilək kəndi. Gəlir: 2.000 ağça
Aşağı Əlimirək kəndi. Gəlir: 3.000 ağça
Kənizək kəndi. Gəlir: 3.000 ağça
Varissiz ölənlərin mirasının satışından xəzinənin gəliri: 2.000 ağça

**Yekun: 29.000 ağça**

*s. 12.*

## GÖYÇƏ nahiyəsi

Horaduz kəndi. Gəlir: 12.312 ağça
Camalgöl kəndi. Gəlir: 4.190 ağça
Qaradəli kəndi. Gəlir: 2.190 ağça

Böyük Ördək kəndi. Gəlir: 5.067 ağça
Kiçik Ördək kəndi. Gəlir: 1.910 ağça
Göyçə gölün sahilində yerləşən Şahaqçı kəndi. Gəlir: 4.910 ağça
Göyçə gölün sahilində yerləşən Vardenis kəndi. Gəlir: 1.220 ağça
Göyçə dağında olan Kəməndbulaq kəndi. Gəlir: 1.750 ağça
Göyçə dağında olan Buğdayitəpə kəndi. Gəlir: 2.110 ağça
Delican kəndi. Gəlir: 9.902 ağça
Gör kəndi. Gəlir: 10.583 ağça
Qalacıq kəndi. Gəlir: 3.920 ağça
Qaraörən kəndi. Gəlir: 8.445 ağça
Ağkilsə kəndi. Gəlir: 7.325 ağça
Qızılörən kəndi. Kəndin başqa adı Öyüdoyratdır. Gəlir: 6.385 ağça
Göyçə gölün sahilində yerləşən Xaç kəndi. Gəlir: 2.210 ağça
Kənizək kəndi. Gəlir: 10.307 ağça
Zar kəndi. Gəlir: 3.220 ağça
Əlkovas kəndi. Gəlir: 1.999 ağça
Kolanı kəndi. Gəlir: 9.505 ağça
Bədkal (?) kəndi. Gəlir: 7.864 ağça
Dəliqardaş kəndi. Gəlir: 10.807 ağça
Azadkaha kəndi. Gəlir: 8.771 ağça
Keşişkənd. Gəlir: 10.874 ağça
Buzxana kəndi. Gəlir: 5.407 ağça
Əmirkənd. Gəlir: 5.575 ağça
Qarakilsə kəndi. Gəlir: 3.100 ağça
Bədəli kəndi. Gəlir: 1.200 ağça
Altuntaxt (?) kəndi. Gəlir: 4.210 ağça
Altuntaxt (?) kəndi tərəfdə yerləşən Ağbulaq kəndi. Gəlir: 4.500 ağça
Görüçüörən kəndi. Gəlir: 5.210 ağça
Görüçüörən kəndi tərəfdə yerləşən Qızıldaş kəndi. Gəlir: 3.590 ağça
Əmiryar kəndi. Gəlir: 4.920 ağça
Digər Ağkilsə kəndi. Gəlir: 2.890 ağça
Gölkənd. Gəlir: 3.823 ağça
Göyçə gölün müqatiəsi. Gəlir: 300.000 ağça
Böyük Dayə kəndi. Gəlir: 8.239 ağça
Kiçik Dayə kəndi. Gəlir: 6.214 ağça
Dilənçi kəndi tərəfdə yerləşən Canqurtaran kəndi. Gəlir: 2.892 ağça
Bədəlli kəndi. Gəlir: 6.549 ağça
Dəlikdaş kəndi. Gəlir: 5.832 ağça
İynədir kəndi. Gəlir: 2.890 ağça

Dilənçi kəndi. Gəlir: 6.890 ağça

*s.13.*

Qalacıq kəndi tərəfdə olan Sercan manastırı. Gəlir: 833 ağça
Göyçə nahiyəsi üzrə rahdarlıq bacı. Gəlir: 40.000 ağça
Göyçə gölündə olan Sınukərə (?) vəngi. Gəlir: 230 ağça

**Yekun: 578.770 ağça.**

## DƏRƏLƏYƏZ nahiyəsi

Axura kəndi. Gəlir: 8.065 ağça
Həmzəli kəndi. Kövərhəsən (?) otlağı və Sübhankənd. Gəlir: 8.434 ağça
Havicə kəndi[57]. Gəlir: 2.758 ağça
Məradik kəndi. Gəlir: 1.220 ağça
Meşin kəndi[58]. Gəlir: 3.608 ağça
Yaycı kəndi. Gəlir: 15.227 ağça
Cağazur kəndi. Gəlir: 5.763 ağça
Xaçik kəndi. Gəlir: 5.350 ağça
Kələdək kəndi. Gəlir: 1.409 ağça
Kənizək kəndi. Gəlir: 2.412 ağça
Veysəlli kəndi. Gəlir: 2.794 ağça
Aqu kəndi[59]. Gəlir: 3.741 ağça
Dayərnəd kəndi[60]. Gəlir: 10.060 ağça
Arpa kəndi. Gəlir: 6.669 ağça
Amaqu kəndi[61]. Gəlir: 3.032 ağça
Çivə kəndi. Gəlir: 4.349 ağça
Qızılgör kəndi. Kəndin başqa adı Şəkərbəylidir. Gəlir: 6.762 ağça
İynəviz kəndi[62]. Gəlir: 11.995 ağça
Bağçacıq kəndi. Gəlir: 2.019 ağça
Rind kəndi. Gəlir: 2.100 ağça
Qozluca kəndi. Gəlir: 4.000 ağça

---

[57] "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə (NSMD) bu kəndin adı "Həviç" şəklində yazılmışdır (s.260).
[58] NSMD-də (s.261) bu kəndin adı "Heşin" kimi yazılmışdır.
[59] Aqu kəndinin adı NSMD-də (s.265) "Əyər" şəklində yazılmışdır.
[60] Bu kəndin adı NSMD-də (s.265) "Dakzid" olaraq göstərilmişdir.
[61] Amaqu kəndinin gəliri NSMD-də (s.268) 4.032 ağça olduğu qeyd edilmişdir.
[62] Bu kəndin adı NSMD-də (s.269) "İynədiz" kimi yazılmışdır.

Kəsəngör[63] kəndi. Gəlir: 1.999 ağça
Çanaqçı kəndi. Gəlir: 2.810 ağça
Keşişviranı kəndi. Gəlir: 3.000 ağça
Urnut kəndi. Gəlir: 2.910 ağça
Xats kəndi[64]. Gəlir: 3.735 ağça
Cəfərli kəndi. Gəlir: 1.801 ağça
Qaşqa kəndi. Gəlir: 2.000 ağça
Ənguri kəndi[65]. Gəlir: 2.980 ağça
Telsin kəndi. Gəlir: 1.999 ağça

*s.14.*

Havinçək kəndi[66]. Gəlir: 3.100 ağça
Ervilas kəndi[67]. Gəlir: 2.850 ağça
İynəli kəndi[68]. Gəlir: 2.552 ağça
Kərinüd kəndi[69]. Gəlir: 2.595 ağça
Abana kəndi və Xunək məzrə`əsi. Gəlir: 4.250 ağça
Vartanes kəndi. Gəlir: 5.168 ağça
Vahuseyni kəndi. Gəlir: 3.960 ağça
Ağcavənk kəndi. Gəlir: 1.524 ağça
Bəmətüm kəndi[70]. Gəlir: 3.090 ağça
Ağkilsə kəndi. Gəlir: 3.090 ağça
Qızqalası kəndi. Gəlir: 4.110 ağça
Qoytul kəndi[71]. Gəlir: 8.380 ağça
Sədərəkxan qışlağı məzrə`əsi[72]. Əvvəllər bura kənd imiş. Gəlir: 4.550 ağça
Meydan kəndi. Kəndin başqa adı Əli qışlağıdır. Gəlir: 2.110 ağça
Ələyəz və Ustup kəndi. Gəlir: 8.833 ağça
Şahyurdu məzrə`əsi. Əvvəllər bura kənd imiş. Gəlir: 4.550 ağça
Ərdiş kəndi. Gəlir: 2.906 ağça
Kəmənkəlül məzrə`əsi[73]. Əvvəllər bura kənd imiş. Gəlir: 2.900 ağça

---

[63] NSMD-də (s. 271) bu kəndin adını "Kərəkor" kimi də oxumaq mümkündür.
[64] Xats kəndinin adı NSMD-də (s. 271) "Xıns" şəklində yazılmışdır.
[65] Bu kəndin adı NSMD-də (s.272) "Əngüzi" şəklində yazılmışdır.
[66] NSMD-də (s. 272) Havinçək kəndinin adı "Çavuşcuq" kimi qeyd olunmuşdur.
[67] Bu kəndin adı NSMD-də (s.272) "Ərdalas" kimi qeyd olunmuşdur.
[68] İynəli kəndinin adı NSMD-də (s. 272) "Əyrili" şəklində yazılmışdır.
[69] Bu kəndin adı NSMD-də (s.272) "Künküd" şəklində yazılmışdır.
[70] NSMD-də (s.274) bu kəndin adı "Pərtum" kimi qeyd edilmişdir.
[71] Qoytul kəndinin adı NSMD-də (s.275) "Qutyol" kimi yazılmışdır.
[72] Bu qışlağın adı NSMD-də (s.275) "Sədərək" kimi yazılmışdır.

Şahyurdu məzrə`əsinin rahdarlıq bacı – 12.000 ağça[74].
Şayi məzrə`əsi[75]. Əvvəllər bura kənd imiş. Gəlir: 3.620 ağça
Xors kəndi. Gəlir: 4.671 ağça
